Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

3
DEKABR
2019-cu il

№ 214 (4112)

Qiymәti
40 qәpik

www.baki-xeber.com

Hәftәdә
5 dәfә çıxır

Qәzet
2003-cü ildәn
nәşr olunur

sәh. 8

# FAŞİST NJDENİN HEYKƏLİ DAĞIDILDI - ERMƏNİSTAN CƏMİYYƏTİNDƏ İLHAM ƏLİYEVLƏ BAĞLI BÖYÜK ETİRAF...



sәh. 3

## Müstәqil Azәrbaycanın tarixindә görünmәmiş hadisә - parlament buraxıldı, Prezident deputatları birmәnalı dәstәklәdi



Naxçıvan Ali Mәclisinin buraxılması - Azәrbaycanda parlament islahatlarının yeni mәrhәlәsi...

sәh. 4

Milli Şura radikalları seçki ilә bağlı köhnәlmiş söz-söhbәtlәri yenә «diriltmәyә» başlayır...

sәh. 6



Әli Hәsәnovun Qarabağ İcmasının rәhbәrliyinә gәtirilmәsi ölkәdә ciddi ziddiyyәtlәr doğurdu...

sәh. 5

TANAP vә Prezidentin ideyası - Azәrbaycan-Türkiyә-AB silsilәsindә әvәzsiz körpü...

sәh. 5

Azәrbaycanın Avropaya uzanan yeni qaz kәmәrinin iki böyük hәdәfi...

sәh. 7

Prezident Administrasiyasında Aqrar şöbә niyә lәğv olundu...

sәh. 10

Hәr yerindәn qalxanın açıq deputatlıq iddiası - MM üzvlüyü bu qәdәr sadәlәşdirildimi...

sәh. 6

Ermәnistan ordusunda fәrariliyin әsl kökü - tәcavüzkar müharibә... Hökumәt isә hәrbi qanunvericilikdә dәyişikliklәrә başlayır...

sәh. 9

Azәrbaycan Xalq Hәrәkatının mitinq cәhdi "bir payız axşamı" kimi puç olub getdi...

sәh. 8

Geyim sahәsindә xaricdәn asılılığımızı güclәndirәn neqativ faktor - emal müәssisәlәri niyә azlıq edir...

sәh. 11

Talassemiya xәstәlәrinin sayında inanılmaz artım...

sәh. 14

sәh. 2

Yeni parlament seçkilәri ilә bağlı daha bir ideya - 125 mandat sayca reallığa uyğun gәlmir...



sәh. 4

Yeni Milli Mәclisdә kimlәr olmasın...



sәh. 10

Magistraturaya qәbulun ikinci turunun lәğv edilmәsi ideyasına böyük etirazlar var...



sәh. 15

Azәrbaycan tәhsil sistemindә yeni metod - sәsli dәrsliklәr...



sәh. 14

Şou müğәnnilәr dә parlamentә düşmәk iddiası ortaya qoydularsa...



# Prezident İlham Əliyev Nazirlər Kabinetinin strukturunda əsaslı islahatların anonsunu verdi...

**Yaxın günlərdə Nazirlər Kabinetinin yeni strukturu təsdiq olunacaq. "Trend"in məlumatına görə, bunu Prezident İlham Əliyev Dilarə Seyidzadəyə "Şərəf" ordenini təqdim edərkən deyib.**

Dövlət başçısı bildirib: "Hörmətli Dilarə xanım, bildiyiniz kimi, keçən həftənin sonunda Prezident Administrasiyasının yeni strukturu təsdiq edildi. Bu struktura görə, uzun illər rəhbərlik etdiyiniz katiblik, bir neçə şöbə ləğv olundu və bir neçə yeni şöbə yaradıldı. Bu, təbii prosesdir. Çünki ölkəmizin hər yerində islahatlar aparılır, o cümlədən struktur islahatları. Yaxın günlərdə Nazirlər Kabinetinin yeni strukturu təsdiq olunacaqdır. Yaxın gələcəkdə parlament yenidən formalaşacaq. Bu, təbii prosesdir. Eyni zamanda, gəncləşmə prosesi aparılır, bu da təbiidir. Çünki biz indi gənc kadrlara gərək imkan yaradaq ki, onlar öz bacarığını göstərsinlər.

Siz 1993-cü ildə Prezident Administrasiyasına ulu öndər Heydər Əliyev tərəfindən dəvət olunmusunuz. Demək olar ki, Heydər Əliyev Prezident kimi fəaliyyətə başlayandan dərhal sonra sizə bu böyük etimadı göstərmişdir və on il ərzində onun rəhbərliyi altında işləmisiniz. Yəni, siz 26 ildir Prezident Administrasiyasında çalışırsınız, onun 20 ilini katibliyin rəisi kimi. Ulu Öndərin sizə olan xoş münasibətini mən şəxsən bilirəm, bunun şahidi olmuşam. O, sizə çox inanırdı, güvənirdi və məhz buna görə sizə böyük vəzifəni etibar etmişdir.

Son 16 il ərzində biz birlikdə işləyirik. Mən də sizin işinizdən həmişə razı olmuşam. Siz çox məsuliyyətli, bilikli, peşəkar insan kimi ölkəmizin ümumi inkişafına böyük töhfələr vermisiniz. Bütün bunları nəzərə alaraq, mən sizi yüksək dövlət ordeni - "Şərəf" ordeni ilə təltif edirəm. Siz bu yüksək ordenə layiqsiniz. Bu orden sizin gördüyünüz işlərə dövlət tərəfindən verilən yüksək qiymətdir. İcazə verin, bu yüksək mükafatı sizə təqdim edim".

Daha sonra Dilarə Seyidzadənin fəaliyyətini yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirib: "Əminəm ki, Siz çox gözəl tarixçi, ictimai xadim kimi bundan sonra da ölkəmizin ümumi inkişafına dəyərli töhfə verəcəksiniz və Azərbaycan tarixini, xüsusilə müasir tarixini olduğu kimi, bütün həqiqətləri tam təfsilatı ilə nəzərə alaraq həm ictimaiyyətə, həm də xüsusilə gənc nəslə çatdıracaqsınız.



Çünki mənim Bakı Dövlət Universitetinin 100 illiyinə həsr edilmiş tədbirdəki çıxışım məhz böyük dərəcədə gənclərə verilən çox ciddi mesaj idi. Həqiqəti onlar olduğu kimi bilməlidirlər, bugünkü reallıqları qiymətləndirməlidirlər, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının qarşısında göstərdiyi tarixi xidmətləri bilməlidirlər. Biz hamımız o acı günləri yaxşı xatırlayırıq. Azərbaycanda xaos, anarxiya, özbaşınalıq hökm sürürdü, ölkəmizin müstəqilliyi sual altında idi. Demək olar ki, Azərbaycan parçalanma ərəfəsində idi. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, biliyi, xalqın ona olan inamı, bizi bu ağır vəziyyətdən çıxardı və inkişaf yoluna qoydu.

Ona görə hesab edirəm ki, müasir tariximizlə bağlı daha böyük əsərlər yazılmalıdır, həm elmi əsərlər, həm publisistik əsərlər. Çünki buna böyük ehtiyac var. Xüsusilə ona görə ki, biz bu tarixi yaşamışıq, biz hamımız o tarixin şahidləriyik. Hesab edirəm ki, bu tarixi olduğu kimi çatdırmaq, onu bizim tarixlə bağlı kitablarda əks etdirmək böyük iş olar. Əminəm ki, Siz tarixçi kimi və Azərbaycan dövlətçiliyinin formalaşmasında önəmli rol oynamış insan kimi bundan sonra da öz elmi fəaliyyətinizdə bu işləri görəcəksiniz. Sizə cansağlığı və yeni uğurlar arzulayıram".

# Yeni parlament seçkiləri ilə bağlı daha bir ideya - 125 mandat sayca reallığa uyğun gəlmir...

**1995-ci il noyabrın 12-də Konstitusiya qəbul olunan zaman Azərbaycan Respublikasının əhalisinin sayı 7 milyon idisə, indi bu say 10 milyondur. Hesab edilir ki, Milli Məclisdə deputatların sayı artırılmalıdır. Ekspertlər bildirirlər ki, ölkə əhalisinin sayı 3 milyon nəfər artdığına görə parlamentdə deputat yerlərinin sayı da artmalıdır.**

Müqayisə üçün, qonşu Gürcüstanda əhali sayı 3 milyon 700 min nəfər olsa da, parlamentdə 150 deputat yeri var. İşğalçı Ermənistanda da 3 milyondan bir qədər çox əhalini parlamentdə 132 deputat təmsil edir.

Bu məsələdə Azərbaycana daha yaxın olan Türkiyə təcrübəsi də mövcuddur. 2017-ci ildə Türkiyə Böyük Millət Məclisində təmsil olunan deputatların sayı 550-dən 600-a çatdırıldı.

Maraqlıdır, Azərbaycanda da deputat yerlərinin sayı artırıla bilərmi? Qeyd edək ki,

*Rauf Zeyni: "Düşünürəm ki, 10 milyonluq ölkə üçün 125 deputat az deyil, kifayət edər"*

*Elşən Həsənov: "Deputat korpusunun say tərkibini artırmaqdansa, hər iki sistemin - mojaritar və proporsional sistemin tətbiqi daha effektiv olar"*



Azərbaycanda deputatların sayının artırılması məsələsi bir neçə dəfə qaldırılsa da, təklif reallaşmayıb. Artıq parlament buraxılıb, qarşıdan seçkilər gəlir, deputatların sayının artırılması ilə bağlı hansı təkliflər var?

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə bildirdi ki, ölkə Prezidentinin təşəbbüsü ilə reallaşan islahatlar rəğbətlə qarşılanır, həm də böyük sahəni əhatə edir: "Bildiyimiz kimi, artıq bu proses qanunverici orqanı da əhatə etməyə başlayıb. Artıq Milli Məclis özünü buraxmaq barədə qərar qəbul edib. Ölkədə yeni dönəmə start verilib. Bu islahatlar prosesində yeni parlamentin formalaşması məsələsi gündəlikdədir. Bunun ölkəmizin inkişafına müsbət təsiri olacaq. Təbii ki, yeni parlamentin seçilməsi üçün Konstitusiyaya görə, 125 yer müəyyən olunub. Bu sayla bağlı hər hansı bir dəyişikliyin edilməsi üçün Konstitusiyaya dəyişiklik olmalıdır. Bunun üçün də referendum keçirilməlidir. Düşünürəm ki, 10 milyonluq ölkə üçün 125 deputat az deyil, kifayət edər. Beynəlxalq təcrübəni öyrənib, bu məsələ ətrafında cəmiyyətin fikirlərini də dinləmək olar. Sayı bizim qədər olan ölkələrin parlamentlərindəki say nəzərdən keçirilə bilər. Bizdə yalnız mojaritar sistemlə seçkilər olur. Proporsional sistemin tətbiqi ilə bağlı də təkliflər var. Onda say arta bilər. Bunun üçün də referendumun keçirilməsi vacibdir. Biz kefiyyətcə müasir parlament istəyiriksə, bütün məqbul variantları nəzərdən keçirməliyik".

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, indiki halda parlamentdə təmsil olunan deputatların say məsələsi deyil, qəbul etdikləri qanunların keyfiyyət məsələsi prioritet olmalıdır. Keçən illərin təcrübəsi də göstərdi ki, sosialyönümlü qanunların qəbulu, ictimaiyyəti narahat edən məsələlərin müzakirəsi, demək olar ki, yox səviyyəsində olub. Seçim müddətində də ağzını belə açıb söz deməyən deputatların MM-də təmsil olunduğunun şahidiyik. Məsələ kəmiyyətdə deyil, keyfiyyətdədir. Onu da əlavə etmək istərdim ki, deputat korpusunun say tərkibini artırmaqdansa, hər iki sistemin - mojaritar və proporsional sistemin tətbiqi daha effektiv ola bilər".

***Məhəmmədəli QƏRİBLİ***

## Baş nazir Ermənistanın torpaqlarımızı işğal etdiyini etiraf etdi...

**Ermənistan baş naziri N.Paşinyanın Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə gedərək burada qanunsuz rejimin qondarma nümayəndələri ilə görüşməsi, Ermənistan və Azərbaycan silahlı qüvvələrinin təmas xəttində işğalçı Ermənistan qüvvələrinə baş çəkməsi torpaqlarımızın hərbi işğalına məhz Ermənistanın məsuliyyət daşıdığının və işğal olunmuş ərazilərimizdə nəzarəti Ermənistanın həyata keçirdiyinin növbəti dəfə bariz göstəricisidir.**



Baki-xeber.com xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan baş nazirinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfər etməsi və orada qondarma rejimin nümayəndələri ilə görüşlər keçirməsinə münasibət bildirərkən deyib. L.Abdullayevanın sözlərinə görə, bir müddət öncə Ermənistanın, guya ki, Dağlıq Qarabağ yerinə qərar qəbul edə bilməyəcəyini iddia edən baş nazir Paşinyan atdığı bu addımları ilə münaqişənin həlli üzrə aparılan danışıqların birbaşa iştirakçısının elə Ermənistan olduğunu təsdiq etmiş oldu: "Demək ki, oğlu Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində hərbi xidmət keçən, işğal olunmuş ərazilərimizdəki Ermənistan silahlı qüvvələrinə baş çəkib mövcud vəziyyətlə tanış olan, qondarma rejimin nümayəndələri ilə görüşlər keçirib planlar quran N.Paşinyan bəhanələri bir kənara qoyaraq, danışıqlar masasında birbaşa iştirakçı kimi qərar qəbulunda iştirak etməlidir".

# Müstəqil Azərbaycanın tarixində görünməmiş hadisə - parlament buraxıldı, Prezident deputatları birmənalı dəstəklədi

**Milli Məclisin plenar iclasında parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə müraciət edilməsi barədə qərar layihəsi oxunub. Layihəni Milli Məclisin sədr müavini Bahar Muradova oxuyub.**

Qərar layihəsində qeyd edilib ki, Azərbaycan Respublikasında həyata keçirilən köklü islahatlar son dövrdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub: "Nazirlər Kabinetində, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, məhkəmə-hüquq sistemində, regional idarəetmə orqanlarında, ümumiyyətlə dövlət və cəmiyyət həyatının bütün sahələrində aparılan struktur və kadr islahatları ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmaqdadır. Bu islahatların daha da sürətləndirilməsi, bütün dövlət hakimiyyəti qollarını əhatə etməsi üçün Milli Məclisin də fəaliyyətinin təkmilləşdirilməsinə, səmərəliliyinin artırılmasına, yenilənməsinə, ölkənin dinamik inkişafı və hərtərəfli dərin islahatlar strategiyasına uyğunlaşdırılmasına ehtiyac duyulur.

Milli Məclis ölkədə həyata keçirilən islahatların daha da genişlənməsi, dərinləşməsi prosesindən kənarda qalmamalı, islahatların qanunvericilik orqanını da əhatə etməsi məqsədi ilə dövlətçilik nümunəsi göstərməlidir. Bu baxımdan Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı Prezidentə müraciətlə əlaqədar Milli Məclisin sədrinə müraciət ediblər. Deputatlar belə vəziyyətdə parlament fəaliyyətinin həyata keçirilməsinin mümkün olmayacağı qənaətinə gəldiklərini və növbədənkənar seçkilər keçirilməsinin zəruri olduğunu bildiriblər. Həmin müraciətin parlamentin plenar iclasında müzakirəsi zamanı digər partiyaları təmsil edən, habelə heç bir partiyaya mənsub olmayan deputatların əksəriyyəti YAP təmsilçilərinin təşəbbüsü ilə həmrəylik nümayiş etdirərək parlament fəaliyyətinin yaranmış vəziyyətdən davam etdirilməsini mümkünsüz olduğunu bəyan ediblər.

Milli Məclis deputatlarının mütləq əksəriyyətinin parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə qəti mövqelərinin mövcudluğunu nəzərə alınaraq deputatların ölkə vətəndaşları tərəfindən yenidən seçilməsi zəruridir. Öz səlahiyyətlərini artıq icra edə bilməməsi şəraitində Milli Məclis hesab edir ki, Azərbaycan parlamenti ölkədə aparılan genişmiqyaslı institusional və kadr islahatlarından geri qalmamalı, fəaliyyətini yenidən qurmalıdır. Buna görə də Milli Məclisin Konstitusiyanın 94-95-ci maddələrində nəzərdə tutulan səlahiyyətlərinin yuxarıda qeyd olunan müasir çağırışlara uyğun həyata keçirilməsi və xalqın etimadının yenidən qazanılması üçün Milli Məclis buraxılmalı və parlamentə növbədənkənar seçkilər keçirilməlidir.

Yuxarıda şərh edilənlərə əsasən, Milli Məclis konstitusiyanın 95-ci maddənin 3-cü hissəsini rəhbər tutaraq qərara alır:

Konstitusiyanın 98-1-ci maddəsinə əsasən, Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Prezidentə müraciət edilsin".

Qərar layihəsi səsverməyə çıxarılıb və qəbul edilib.

Milli Məclisin sədri Oqtay Əsədov Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə qərar imzalayıb.

Qərarda deyilir:

"Azərbaycan Respublikasında həyata keçirilən köklü islahatlar son dövrdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycan Respublikasının Nazirlər Kabinetində, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, məhkəmə-hüquq sistemində, regional idarəetmə orqanlarında, ümumiyyətlə, dövlət və cəmiyyət həyatının bütün sahələrində aparılan struktur və kadr islahatları ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmaqdadır.

Eyni zamanda, bu islahatların daha da sürətləndirilməsi və bütün dövlət hakimiyyəti qollarını əhatə etməsi üçün Azərbaycan Respublikası Milli Məclisinin də fəaliyyətinin təkmilləşdirilməsinə, səmərəliliyinin artırılmasına, yenilənməsinə, ölkənin dinamik inkişafı və hərtərəfli dərin islahatlar strategiyasına uyğunlaşdırılmasına ehtiyac duyulur.

Azərbaycan Respublikasının Milli Məclisi ölkədə həyata keçirilən islahatların daha da genişlənməsi və dərinləşməsi prosesindən kənarda qalmamalı, islahatların qanunvericilik orqanını da əhatə etməsi məqsədilə dövlətçilik nümunəsi göstərməlidir. Bu baxımdan, Azərbaycan Respublikasının Milli Məclisində çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri Milli Məclisin Sədrinə müraciət edərək belə vəziyyətdə parlament fəaliyyətinin həyata keçirilməsinin mümkün olmayacağı qənaətinə gəldiklərini və növbədənkənar seçkilər keçirilməsinin zəruri olduğunu bildirmişlər. Həmin müraciətin Milli Məclisin plenar iclasında müzakirəsi zamanı digər partiyaları təmsil edən deputatların, habelə heç bir partiyaya mənsub olmayan deputatların əksəriyyəti Yeni Azərbaycan Partiyası təmsilçilərinin bu təşəbbüsü ilə həmrəylik nümayiş etdirərək parlament fəaliyyətinin yaranmış vəziyyətdə davam etdirilməsinin mümkünsüz olduğunu bəyan etmişlər.

Azərbaycan Respublikası Milli Məclisi deputatlarının mütləq əksəriyyətinin parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə qəti mövqelərinin mövcudluğunun parlamentin öz fəaliyyətini davam etdirməsinin qarşısını aldığı nəzərə alınaraq, deputatların ölkə vətəndaşları tərəfindən yenidən seçilməsi zəruridir. Öz səlahiyyətlərini artıq icra edə bilməməsi şəraitində Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, Azərbaycan parlamenti ölkədə aparılan genişmiqyaslı institusional və kadr islahatlarından geri qalmamalı, fəaliyyətini yenidən qurmalıdır. Buna görə də Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş səlahiyyətlərinin yuxarıda qeyd olunan müasir çağırışlara uyğun həyata keçirilməsi və xalqın etimadının yenidən qazanılması üçün Milli Məclis buraxılmalı və parlamentə növbədənkənar seçkilər keçirilməlidir.

Yuxarıda şərh edilənlərə əsasən, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikası Konstitusiyasının 98?-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə müraciət edilsin".

Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Milli Məclisin müraciətində göstərilmiş parlamentin buraxılması məsələsinin Konstitusiyaya uyğunluğu ilə bağlı dekabrın 2-də Konstitusiya Məhkəməsinə sorğu göndərib.

Sorğuda deyilir:

"Azərbaycan Respublikasının Milli Məclisi deputatlarının səs çoxluğu ilə "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Qərar qəbul etmişdir. Qeyd edilən Qərar ilə Azərbaycan Respublikasının Prezidentindən Milli Məclisin Azərbaycan Respublikası Konstitusiyasının 98.1-ci maddəsinə əsasən buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi xahiş edilir.



Qərarda bildirilir ki, Milli Məclis üzvlərinin mütləq əksəriyyətində parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə mövqe formalaşmış və nəticədə parlamentin öz fəaliyyətini davam etdirməsi qeyri-mümkün olmuşdur. Bu baxımdan da, Qərara əsasən Milli Məclisin Konstitusiyanın 94-cü və 95-ci maddələrində nəzərdə tutulan səlahiyyətlərinin müasir çağırışlara uyğun həyata keçirilməsi və xalqın etimadının yüksək səviyyədə saxlanılmasının təmin edilməsi üçün Milli Məclis buraxılmalı və növbədənkənar parlament seçkiləri keçirilməlidir.

Milli Məclisin Qərarı üzrə yekun Qərar qəbul etməzdən əvvəl, hazırkı şərtlərdə Milli Məclisin buraxılmasının Azərbaycan Respublikası Konstitusiyasının 98.1-ci maddəsinə uyğun olub-olmayacağı barədə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinin öyrənilməsi zərurəti yaranmışdır.

**Qeyd edilənləri və Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndini rəhbər tutaraq, xahiş edirəm ki, yaranmış vəziyyətdə Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Milli Məclisinin "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Qərarı əsasında Milli Məclisi buraxmasının Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olub-olmayacağı barədə qərar qəbul edəsiniz".**

# Naxçıvan Ali Məclisinin buraxılması - Azərbaycanda parlament islahatlarının yeni mərhələsi...

**Gözlənildiyi kimi, Milli Məclisin (MM) plenar iclasında parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə müraciət edilməsi barədə qərar layihəsi oxunub.**

*"YAP-ın Naxçıvan şöbəsi bununla bağlı Prezidentə müraciət etsə..."*

Sözügedən layihəni MM sədrinin müavini Bahar Muradova deputatların diqqətinə çatdırıb. Qərar layihəsi səsverməyə çıxarılıb və 99 lehinə səslə qəbul edilib. Səsvermədə 1 nəfər bitərəf qalıb, 1 nəfər qərar layihəsinin əleyhinə səs verib. Bir deputat isə səsvermədə iştirak etməyib.

Səsvermədən sonra spiker Oqtay Əsədov deyib ki, Milli Məclisin dekabrın 3-də keçiriləcək plenar iclası V çağırış üçün sonuncu iclası ola bilər. Daha sonra Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə müraciət edilməsi barədə parlamentin qərarının mətni açıqlanıb.

O da məlumdur ki, Naxçıvan Ali Məclisinə keçirilən seçkilər Azərbaycan parlament seçkiləri ilə eyni vaxtda keçirilir. Sonuncu dəfə Naxçıvan MR Ali Məclisinə seçkilər 2015-ci ilin noyabrında keçirilib. Ali Məclisin 45 deputatı var. Azərbaycanda parlamentin buraxılması fonunda, bənzər addımların Naxçıvan MR Ali Məclisi ilə bağlı atılması da gündəmə gəlir. Çünki Naxçıvan Azərbaycanın tərkib hissəsidir. O baxımdan ekspertlər buna necə yanaşırlar?

Sözügedən məsələyə aydınlıq gətirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, bu barədə hakim partiyanın qərarı olmalıdır: "Naxçıvan MR Ali Məclisi bölgənin parlamenti hesab olunur. Ancaq Ali Məclisə növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı YAP-ın qərarı yoxdur. Yəni YAP-ın Naxçıvan şöbəsi bununla bağlı Prezidentə müraciət etsə, o zaman buna da baxıla bilər. YAP-ın deputatları yalnız MM-nin buraxılması ilə bağlı təşəbbüs qaldırıblar. O üzdən, YAP-ın Naxçıvan şöbəsindən bənzər təşəbbüs olarsa, Ali Məclisə yeni seçkilər keçirilə bilər. Belə bir təşəbbüs olmasa, Naxçıvan MR Ali Məclisi fəaliyyətini davam etdirəcək. Konstitusiyaya görə, Ali Məclis 5 illiyə seçilir. Milli Məclis Prezidentin apardığı islahatlarla ayaqlaşa bilmirsə, parlamentin yenilənməsi təklif olunursa, deməli, eyni məntiqlə Ali Məclisə də yanaşmaq olar. Ancaq, qeyd etdiyim kimi, bununla da bağlı YAP-ın qərarı və müraciəti olmalıdır. Belə bir qərar yoxdursa, Konstitusiyaya görə, Naxçıvan MR Ali Məclisi fəaliyyətini davam etdirməlidir. Bu o deməkdir ki, Ali Məclisə seçkilər payızda keçirilməlidir".

***Məhərrəm Zülfüqarlı:** "Milli Məclis Prezidentin apardığı islahatlarla ayaqlaşa bilmirsə, parlamentin yenilənməsi təklif olunursa, deməli, eyni məntiqlə Ali Məclisə də yanaşmaq olar"*




***Vidadi ORDAHALLI***

# Yeni Milli Məclisdə kimlər olmasın...

**Dekabrın 2-də Milli Məclisin növbəti iclası keçirilib. İclasda Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə məsələ müzakirə edilib.**



İclası açan Milli Məclisin sədri Oqtay Əsədov bildirib ki, Yeni Azərbaycan Partiyası noyabrın 28-də Milli Məclisə parlamentin buraxılması və növbədənkənar seçkinin keçirilməsi haqqında müraciət edərək iclasın çağırılmasını xahiş edib. O. Əsədov qeyd edib ki, Azərbaycanda Nazirlər Kabineti, idarəetmə orqanları, dövlət həyatının bütün sahələrində həyata keçirilən kadr islahatları cəmiyyətdə rəğbətlə qarşılanır. Qarşıya çıxan yeni çağırışlar, cəmiyyətin gözləntiləri və digər amillər qanunvericilik hakimiyyətində də islahatların dərinləşməsi, parlamentin yeniləşməsini zəruri edib.

Daha sonra müzakirələr başlayıb. Müzakirələrdən sonra Milli Məclis sədrinin müavini Bahar Muradova parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə müraciət edilməsi barədə qərar layihəsini oxuyub. Layihə səsə qoyularaq qəbul edilib.

***Arzuxan Əlizadə:** "Hesab edirəm ki, Milli Məclis yaşlı, bir dəfə də olsun danışmayan, passiv fəaliyyət göstərən deputatlardan qurtulmalıdır"*

Məlum məsələdir ki, növbədənkənar parlament seçkilərinin keçirilməsi cəmiyyətdə böyük maraqla izlənir. Cəmiyyət buna aparılan islahatların tərkib hissəsi kimi yanaşır. O baxımdan seçiləcək yeni parlamentdən, ən başlıcası, onun tərkibinin formalaşmasından gözləntiləri çoxdur. Arzuolunandır ki, parlamentin tərkibində keyfiyyət baxımından ciddi yeniliklər olsun. Heç vaxt parlamentdə danışmayan, hansısa məsələyə münasibət bildirməyən şəxslərin Milli Məclis üzvü olması arzuolunmazdır. Biznes fəaliyyəti ilə bu və ya digər formada məşğul, yaxud da bağlı olan şəxslərin parlamentdə yer alması yolverilməzdir. Çünki belələrinin orada olması qanunverici orqanı hörmətdən salır. Sabiq millət vəkili Rəfail Cəbrayılovun timsalında yaşanan biabırçılıq deyilənlərə əyani sübutdur. Digər tərəfdən, elələri var ki, 25-30 ildir mandat sahibidirlər. Belələrinin parlamentdə olması cəmiyyətdə ikrah hissi yaradır. Çox yaxşı olardı ki, beləleri yeni MM-də yer almasınlar. Mətbuatdan alət kimi istifadə edənlərin yenidən orada olması arzuedilən deyil.

Maraqlıdır, bəs ekspertlər bütün bunları necə dəyərləndirirlər?

*"Hansısa oliqarxla bağlılığı olan şəxslərin yeni parlamentdə olmasına yol verilməməlidir"*

Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, yeni parlament dinamik olmalıdır: "Bunun üçün də bir sıra məqamlar nəzərə alınmalıdır. Ən başlıcası, daha dinamik və bacarıqlı şəxslərin parlamentə düşməsinə şərait yaradılmalıdır. Hansısa oliqarxla bağlılığı olan şəxslərin yeni parlamentdə olmasına yol verilməməlidir. Çünki beləleri qanunverici orqanın imicinə, qurumun müstəqil fəaliyyət göstərməsinə kölgə salır. Oliqarxların maraqlarına uyğun qanunların qəbul olunmasına çalışırlar və s. Bir sözlə, beləleri müstəqil fəaliyyət göstərə bilmirlər.

Hesab edirəm ki, Milli Məclis yaşlı, bir dəfə də olsun danışmayan, passiv fəaliyyət göstərən deputatlardan qurtulmalıdır. Cəmiyyət illərlə parlamentdə oturan, amma heç bir fəaliyyəti ortada olmayan deputatlardan bezib. O üzdən, parlamentdə yeni simalar olmalıdır. Digər tərəfdən, real və sağlam müxalifət partiyalarından olan namizədlərin MM-də olmasına ehtiyac var".

***Vidadi ORDAHALLI***

**TANAP Türkiyə və Azərbaycan xalqlarına, digər qonşu xalqlara fayda və tərəqqi verəcək. Bunu Prezident İlham Əliyev Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimində çıxışı zamanı deyib.**




# TANAP və Prezidentin ideyası - Azərbaycan-Türkiyə-AB silsiləsində əvəzsiz körpü...

## *Fikrət Yusifov: "TANAP layihəsi tərəflər arasında çoxşaxəli əlaqələrin inkişafına öz töhfəsini verəcək"*

Ölkə başçısının sözlərinə görə, "Cənub Qaz Dəhlizi" özündə 7 ölkəni birləşdirir və bu, artıq beynəlxalq əməkdaşlıq layihəsidir: "Bu layihə ölkələr arasında körpülər yaradacaq və daha böyük anlaşmaya yol açacaq. Bu layihədə iştirak edən 7 ölkə, - onlardan üçü Avropa İttifaqının üzvüdür, - bundan sonra uzun illər birlikdə çalışacaq və bunun faydasını bölüşəcəklər. Yəni bu layihə əməkdaşlıq, sabitlik, uzunmüddətli anlaşma gətirir. Yəni bu layihələrə, sadəcə olaraq, enerji layihələri kimi baxmaq düzgün olmaz. Onu da bildirməliyəm ki, bizim enerji layihələrimiz digər layihələrə də yol açdı. İki il bundan əvvəl əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını qeyd etdik. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə həm Azərbaycanın, həm Orta Asiya ölkələrinin, həm də Əfqanıstanın və Çinin yükləri daşınır. Bu dəmir yolu qitələri birləşdirir".

Görünən odur ki, TANAP Azərbaycan, Türkiyə və Avropa Birliyi arasında iqtisadi-siyasi əməkdaşlığın genişlənməsinə xidmət edəcək. Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər? TANAP Azərbaycan, Türkiyə və AB arasında əlaqələrin inkişafında necə rol oynayacaq?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, TANAP layihəsi tərəflər arasında çoxşaxəli əlaqələrin inkişafına öz töhfəsini verəcək: "Əvvələ yeddi ölkənin iştirak etdiyi belə nəhəng layihəni güclü siyasi iradənin və qətiyyətin olduğu yerdə reallaşdırmaq mümkün ola bilərdi. Prezident İlham Əliyev bu layihənin təməlini hələ 2011-ci ilin sonlarında qoymuşdu. "Şahdəniz -2" qazının Türkiyə ərazisindən Avropaya tranzit daşınması ilə əlaqədar 2011-ci il oktyabrın 25-də hökumətlərarası müqavilə, 2011-ci il dekabrın 24-də isə ilkin razılaşma imzalanmışdı. Azərbaycan-Türkiyə qardaşlığı və birliyi isə onu gerçəkliyə çevirdi.

Bu gün birgə reallaşdırılan nəhəng regional layihələrlə bərabər, iki ölkə arasında bütün səviyyələrdə olan əlaqələr - xüsusilə də iqtisadi əlaqələr daha da dərinləşir və yeni inkişaf müstəvisinə çıxır. TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimində Prezident İlham Əliyevin dediyi kimi, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı gündəngünə möhkəmlənir. Cari ilin 9 ayında iki ölkə arasında ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 40 faizdən çox artıb. İki ölkə arasında qarşılıqlı investisiya yatırımlarının həcmi də sürətlə artır. Bu günə qədər Türkiyə Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox vəsait yatırıb. Azərbaycan da, öz növbəsində, Türkiyəyə 17,5 milyard dollar sərmayə qoyub. Bütün bunlarla yanaşı, kəmər Azərbaycan, Türkiyə və Avropa Birliyi arasında əlaqələrin inkişafına müsbət təsir edəcək. Bu, təkcə iqtisadi müstəvi ilə məhdudlaşmayacaq. Siyasi müstəvidə də əlaqələrin inkişafına müsbət təsir göstərəcək".

### *"Bu, təkcə iqtisadi müstəvi ilə məhdudlaşmayacaq"*

F.Yusifovun fikrincə, Azərbaycan üçün xüsusi əhəmiyyətə malik olan bu nəhəng layihənin ölkəmizin iqtisadi potensialını artırmaqla yanaşı, siyasi faydası da olacaq: "Belə ki, siyasi müstəvidə dövlətimizin Dağlıq Qarabağ kimi bir probleminin həlli baxımından əhəmiyyətli rol oynayacaq. İndi fəxrlə deyə bilərik ki, Azərbaycan dünyanın təlatümlər yaşadığı bir dönəmdə məhz Prezident İlham Əliyevin siyasi iradəsinin və qətiyyətinin nəticəsindəTANAP layihəsinin işə salınması ilə daha bir uğura imza atdı. Heç şübhəsiz, bu layihə Azərbaycanın iqtisadi dirçəlişinə sanballı töhfələr verəcək. Neftlə yanaşı, indi qaz ixracından əldə olunacaq milyardlarla dollar ölkə iqtisadiyyatına, onun real sektorunun sürətli inkişafına böyük dəstək olacaq. Bütün bu işlər isə Azərbaycanda daha iri sosial layihələrin reallaşdırılmasına, insanlarımızın həyat səviyyəsinin və sosial durumunun inkişaf etmiş ölkələrdəki səviyyəyə yüksəldilməsinə imkan verəcək".

**Vidadi ORDAHALLI**

---

**Baş nazirin sabiq müavini Əli Həsənov Dağlıq Qarabağın Azərbaycanlı İcmasının İdarə Heyətinə üzv qəbul edilib. Bu barədə məlumatı icmanın İdarə Heyətinin üzvü, deputat Elman Məmmədov təsdiqləyib. O qeyd edib ki, Ə.Həsənovun İdarə Heyətinə üzv qəbul edilməsi ayın əvvəlində keçirilən iclasda təsdiq edilib:**



# Əli Həsənovun Qarabağ İcmasının rəhbərliyinə gətirilməsi ölkədə ciddi ziddiyyətlər doğurdu...

## *Akif Nağı: "Onun ora niyə seçilməsi ilə bağlı konkret bir fikir demək çox çətindir"*

## *Samir Adıgözəlli: "Əli Həsənovun təcrübəsindən yararlanmağı düşünürlərsə..."*

"Ayın əvvəlində İdarə Heyətinin iclası çağırıldı. Həmin iclasda Ə.Həsənov özü də iştirak edirdi və onun üzv qəbul edilməsi təsdiqləndi".

İcmadan verilən digər məlumatda isə Ə.Həsənovun İdarə Heyətinə üzvlüyü məsələsinin dekabr ayının sonunda təsdiqlənəcəyi bildirilib: "Hələlik bu, rəsmi məlumat deyil. Dağlıq Qarabağın Azərbaycanlı İcmasının dekabrın sonunda üçüncü qurultayı keçiriləcək. Sözügedən məsələyə həmin qurultayda baxılacaq".

Məlum olduğu kimi, Ə.Həsənov bir müddət əvvəl yaşının çox olması ilə əlaqədar istefaya göndərilib. Ə.Həsənovun Dağlıq Qarabağın Azərbaycanlı İcmasının İdarə Heyətinə üzv qəbul edilməsi cəmiyyətdə birmənalı qarşılanmayıb. Sosial şəbəkələrdə bununla bağlı kütləvi narazılıq bildirilir. Əsasən də bu sual ünvanlanır: buna ehtiyac vardımı? İnsanlar narazılıqlarını Əli Həsənovun heç də yaxşı olmayan mübahisəli reputasiyası ilə əlaqələndirirlər. Bildirilir ki, o, vəzifədə olduğu zaman adı müxtəlif maliyyə qalmaqallarında hallanıb. Həmçinin, onun yaxın ətrafının keçirdiyi dəbdəbəli həyat tərzi fonunda, cinayətlərə yol verməleri mediada uzun müddət müzakirə etdiyi mövzular sırasında olub. Hazırda Ə.Həsənovun İdarə Heyətinə üzv seçildiyi qurum dinamik fəaliyyət tələb edir. Yəni ora təqaüddə olan şəxslərin baş girələməsi üçün nəzərdə tutulmur. Belə olan halda, Ə.Həsənovun icmaya üzv seçilməsi lazım idimi?

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələdə heç bir qəbahət görmür: "Onun imkanları varsa, qoy istifadə edib, ümumi işimizin xeyrinə çalışsın. Onun ora niyə seçilməsi ilə bağlı konkret bir fikir demək çox çətindir. İcmanın indiki heyəti kifayət qədər yaxşı təşkil edilib. Hiss olunur ki, Tural Gəncəliyev aktiv çalışır. Ə.Həsənovun da bu işlərdə təcrübəsi var. Görünür, onun təcrübəsindən istifadə etmək istəyirlər. Hər halda, gözləyək. Yəqin ki, onun hansısa müsbət keyfiyyətlərindən istifadə etməyin mümkün olduğunu fikirləşiblər. Biz də arzulayaq ki, xeyirli olsun".

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin sədri Samir Adıgözəlli isə "Bakı-Xəbər"ə açıqlamasında buna ehtiyacın olmadığını bildirdi: "Belə çıxır ki, icma pensiyaçılar üçün nəzərdə tutulub? Bunlar öz ərizələri ilə vəzifələrindən çıxıblar ki, yerlərinə gənclər gəlsinlər. Bəyəm bütün dünyanın diqqət mərkəzində olan Azərbaycan İcmasında gəncləşməyə ehtiyac yoxdur? Əslində, daha dinamik adamlar həmin icmada təmsil olunmalıdırlar. Ə.Həsənovun təcrübəsindən yararlanmağı düşünürlərsə, həmin təcrübəyə icmanın elə bir ehtiyacı yoxdur. Həmin şəxsin cəmiyyətdə reputasiyası da olmalıdır. Hazırda həssas məqamdır. Dağlıq Qarabağla bağlı danışıqlarda bizim icma çox fəal olmalıdır".

**Məhəmmədəli QƏRİBLİ**

# Milli Şura radikalları seçki ilə bağlı köhnəlmiş söz-söhbətləri yenə "diriltməyə" başlayır...

## *Rəfail Becanov: "...bir cığallıq nümunəsidir"*

**Demokratik Qüvvələrin Milli Şurası təcili şəkildə, indiki Milli Məclis buraxılmadan ən vacib seçki islahatları həyata keçirilməsini və ölkədə, minimum da olsa, seçki mühiti yaradılmasını tələb edir. Bu barədə Milli Şuranın dekabrın 1-də yaydığı bəyanatda deyilir:**



"Milli Şuranın 2015 və 2018-ci il seçkilərində iştirak etməməsinin səbəbi məhz ölkədə minimal seçki mühitinin olmaması idi. İndi hakimiyyət seçki mühitinin yaranması üçün təcili addımlar atmalıdır ki, müxalifətin də iştirak edəcəyi və cəmiyyəti doğrudan da islahatlar istiqamətində aparacaq bir seçki keçirmək mümkün olsun".

Milli Şura seçki komissiyalarının yenidən formalaşmasını, namizədlərin qeydiyyatına yaradılan süni əngəllərin aradan qaldırılmasını, bərabər təbliğat imkanlarının, o cümlədən, İTV-də namizədlər üçün çıxış, partiyalar üçün debat imkanlarının bərpa edilməsini də vacib sayır. Faktiki olaraq, Milli Şura seçkiləri boykot edəcəyi ilə bağlı hakimiyyətə mesaj vermək istəyir. Özlərinin də qeyd etdikləri kimi, onlar bu taktikadan əvvəlki seçkilərdə də istifadə ediblər, amma heç bir nəticə əldə olunmayıb. Maraqlıdır ki, parlamentin buraxılmasını daha çox tələb edənlər elə radikal müxaliflər olub. İndi bu proses baş verir, onlar boykotdan danışırlar. Bunun səbəbi nə ilə bağlıdır?

Razi Nurullayevin rəhbərlik etdiyi AXCP-nin funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bütün bunlar bəhanədir: "Siyasi mübarizə üçün partiyalar və ya bloklar təsis olunubsa, mütləq mənada, seçkilərdə iştirakda maraqlı olmalıdırlar. Bu, siyasi partiyanın başlıca məqsədi olmalıdır. Bu məqsəd yoxdursa, onda həmin qurumlar niyə arenada qalırlar? İndiki halda görünür ki, həmin təşkilatlar heç üzərlərinə götürdükləri funksiyanı ayırd edə bilmirlər. Biz hesab edirik ki, seçkilərdə birmənalı iştirak etmək lazımdır. Seçki Azərbaycan dövlətinin, xalqının taleyi ilə bağlı olan məsələdir. Kimin iddiası varsa, o, Azərbaycan xalqının taleyinin formalaşmasında iştirak edərək, mütləq mənada, gücünü seçkidə sınamalıdır. Milli Şuranın yaydığı bəyanatı mən lazımi sənəd saymıram. Bunun doğru adı bir cığallıq nümunəsidir. Biz həmin mövqenin əleyhinəyik. Onların daim belə çığallıqla seçkidən boyun qaçırmasının başlıca səbəbi seçkiyə hazır olmamalarıdır. Əslində, siyasi təşkilatlar seçkiyə daim hazır olmalıdırlar. Buna hazırlıq bir seçki başa çatdıqdan sonra digərinə qədər aparılmalıdır. Radikal müxalifət isə bəzən bunun səbəbini hakimiyyətin onları hazırlıqsız yaxalamasında görməklə izah edir. Bunların hamısı özlərinə bəraət qazanmaq üçün səslənən fikirlərdir. Əslində, sosial bazaları, lazımi səviyyədə sanballı namizədləri yoxdur ki, normal şəkildə seçkidə iştirak etsinlər. Boykot məsələsi çox absurddur. Bunu o təşkilat edə bilər ki, güclü sosial bazası olsun və bununla seçkilərin taleyinə, onun baş tutmasına təsir göstərə bilsin. Milli Şuranın belə bazası yoxdursa, seçkidən yayınmağın yolunu boykotda görməsi çox absurddur. Bu adla, sadəcə, manipulyasiya edirlər".

> *"Milli Şuranın belə bazası yoxdursa, seçkidən yayınmağın yolunu boykotda görməsi çox absurddur"*

***Məhəmmədəli QƏRİBLİ***

# Hər yerindən qalxanın açıq deputatlıq iddiası - MM üzvlüyü bu qədər sadələşdirildimi...

## *Ramil Hüseynov: "Bir çoxunun təsəvvüründə deputat olmaq rahat iş və böyük nüfuz sahibi olmaq anlamına gəlir"*

**Məlum olduğu kimi, noyabrın 28-də hakim Yeni Azərbaycan Partiyası Siyasi Şurasının iclası keçirilib. İclasda YAP Siyasi Şurasının qərarı qəbul edilib. Qərara əsasən, partiyanı təmsil edən deputatlara Azərbaycan Respublikası Milli Məclisinin buraxılması ilə bağlı təşəbbüslə çıxış etmək tövsiyə olunub. Yəni artıq qanunverici orqan yola salınır.**



O da məlumdur ki, Azərbaycan Respublikasının yaşı 25-dən aşağı olmayan hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada Milli Məclisə deputat seçilə bilər. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər.

Ancaq çox qəribədir ki, YAP-ın məlum qərarından sonra, deputat olmaq istəyənlərin sayı sürətlə artır. Daha dəqiq desək, bu istəklə çıxış edənlərin sayı artmaqdadır. Kim gəldi deputat olmaq istəyir. Şou müğənniləri, müxtəlif sənət adamları, işi-gücü ancaq "Facebook"u izləməkdən ibarət olan şəxslər deputat olmaq eşqinə düşüblər. Sanki deputat seçilmək, bunun məsuliyyətini daşımaq o qədər asandır. Bütün hallarda, cəmiyyətdə deputat olmağa meylin artması nə ilə bağlıdır?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, belə meyllərin artması bir sıra məqamlardan irəli gəlir: "Məsələ ondadır ki, cəmiyyətdə millət vəkili olmaqla bağlı təsəvvürlər fərqlidir. Bir çoxunun təsəvvüründə deputat olmaq rahat iş və böyük nüfuz sahibi olmaq anlamına gəlir. Ən başlıcası, kənardan elə təəssürat yaranır ki, millət vəkili olmaq məmur olmaqdan daha asandır. Çünki məsuliyyəti azdır. Əsasən bu səbəbdən son günlər bir çoxu deputat olmaq istəyinə düşüb. Əslində, əvvəllər də belə tendensiya var idi. Yəni əvvəlki parlament seçkilərində də deputat olmaq istəyənlər çox olub. Xüsusən də 2005-ci il seçkilərində bu özünü daha qabarıq formada göstərdi. Həmin il namizədlərin qeydiyyata alınması proseduru sadələşdirildi. Bu səbəbdən, necə gəldi, bir çoxu namizədliyini verdi. Sonrakı parlament seçkilərində bu tendensiya bir qədər azaldı.

Ancaq yenə də buna meyl var idi. Son günlər isə bu tendensiyanın yenidən aktivləşdiyini müşahidə edirik. Əslində, deputat olmaq o qədər də asan deyil. Bunun üçün gərək namizədin yaşadığı seçki dairəsində nüfuzu, tərəfdarları olsun. Cəmiyyət bu şəxsi ciddi qəbul etsin. Bunun üçün cəmiyyətlə işləmək, imza toplamaq lazımdır. Hansısa tanınmış müğənni olmaq o demək deyil ki, beləleri mütləq deputat olmalıdır. Bunlar tamam fərqli məsələlərdir".

> *"Hansısa tanınmış müğənni olmaq o demək deyil ki, beləleri mütləq deputat olmalıdır"*

***Vidadi ORDAHALLI***

**TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin istismara tam hazır vəziyyətə gətirilməsi artıq dünya enerji xəritəsini də əhəmiyyətli dərəcədə dəyişməyə başlayır. Bununla Azərbaycan həm də iki mühüm məqsədə nail olur.**

# Azərbaycanın Avropaya uzanan yeni qaz kəmərinin iki böyük hədəfi...

Onlardan birincisi Avropanı tam yeni mənbədən təbii qazla təmin edən mənbə statusunu qazanmaq, ikincisi, Avropa və ümumiyyətlə dünya enerji bazarında daha güclü mövqenin sahibinə çevrilməkdir. Azərbaycan artıq bu istiqamətdə müvafiq addımlar atmaqla Avropa üçün daha etibarlı enerji tərəfdaşı statusu əldə edib.

Ekspertlər hesab edir ki, bütün bunlar Azərbaycanın perspektiv inkişafı baxımından da mühüm önəm kəsb edir. Bu barədə danışmazdan öncə xatırladaq ki, noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. "Cənub Qaz Dəhlizi"nin əsas seqmenti olan TANAP Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" qaz-kondensat yatağından çıxarılan qazı avropalı istehlakçılara çatdıracaq. "Enerjinin İpək yolu" adlandırılan TANAP-ın birinci fazası keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlayıb. SOCAR-ın prezidenti Rövnəq Abdullayev bildirir ki, Azərbaycan Türkiyə və Avropa enerji bazarında yerini möhkəmləndirəcək:"Avropanın yeni qaz təchizatçısı olmaqla bərabər, biz qardaş Türkiyənin də ikinci ən böyük qaz tədarükçüsünə çevrilmək əzmindəyik".




Beləliklə, Azərbaycan qazının artıq Avropa yolu da açılır. Türkiyənin Boğaziçi Universiteti Enerji Politikaları Araşdırma Mərkəzinin prezidenti Gürkan Kumbaroğlu bildirir ki, ikinci fazası da tam hazır olan TANAP funksional baxımdan çoxşaxəli missiya daşıyır. Çünki TANAP heç bir kəmərə alternativ deyil, bu xəttin ideyası və gerçəkləşməsi tam şəkildə yenilikdir: "TANAP xətti ilə illik nəql olunacaq 16 milyard kubmetr qazın təxminən üçdə bir hissəsi Türkiyədə istifadə olunacaq. Bu həcmdə qaz əldə etmək Türkiyənin iqtisadiyyatında və sosial həyatında mühüm amildir. Bu da, istər-istəməz, Avropa-Türkiyə münasibətlərinin inkişafına yeni bir yanaşma gətirəcək. Bundan başqa, TANAP Avropanın cənub-şərq bölgəsində yerləşən ölkələrin də iqtisadi inkişafına əhəmiyyətli dərəcədə təkan verəcək".

Alim əminliklə qeyd edib ki, Türkiyədə kəsişən TANAP və TAP xətləri Avrasiyada bu vaxtadək görünməyən qtisadi inteqrasiya yaradacaq. Bu qaz boru kəmərləri Azərbaycanın təbii qazını Anadoluya və Avropaya nəql etməklə dünya ictimaiyyətinin diqqətini Qafqaz bölgəsinə, o cümlədən Xəzər hövzəsinə yönəldəcək. TANAP-ın baş direktoru Saltuk Düzyol isə xatırladır ki, TANAP layihəsi Azərbaycanla Türkiyənin uzun illər birgə səyləri nəticəsində ərsəyə gəlib. Layihənin həyata keçməsi ilə Azərbaycanın Avropanın yeni qaz tədarükçüsü olmaq hədəfinə çatdığını vurğulayan Düzyol deyib: "Bununla Azərbaycan, eyni zamanda, Türkiyənin də ikinci qaz tədarükçüsü oldu. Türkiyə artıq uzun illərdir qaz ehtiyacını Rusiya və İran qazı ilə qarşılayırdı. Burada Azərbaycan üçüncü tədarükçü idi. Lakin TANAP-la Azərbaycan Türkiyənin qaz ehtiyacını qarşılayan ikinci böyük dövlətə çevrildi". O bildirib ki, layihə vaxtında başa çatıb: "Azərbaycan və Türkiyənin uzunmüddətli strateji tərəfdaşlığının ən gözəl nümunəsi olan son dərəcə uğurlu bir layihənin nəticəsini görürük. Ən əhəmiyyətlisi odur ki, layihə vaxtında tamamlandı. Nəhəng enerji layihəsinə başladığımız vaxt yola 11,7 milyard dollarlıq təxmini yatırım büdcəsi ilə çıxılmışdı və bu rəqəm 6,5 milyard dollara qədər endirildi. Layihə planlaşdırılmış vaxtda, dəqiqliklə icra olundu. Azərbaycan layihə sayəsində enerji sahəsində bu günə qədər nümayiş etdirdiyi uğurlu işbirliyinin sübutunu ortaya qoydu".

O qeyd edib ki, layihə həm Azərbaycan, Türkiyə, həm də Avropa üçün çox böyük əhəmiyyət daşıyır: "Bununla da Azərbaycan və Türkiyənin strateji mövqeyi çox gücləndi. TANAP-ın Avropa Birliyi ilə əlaqələrin gücləndirilməsi, siyasi mövqeyinin daha da möhkəmləndirilməsi üçün Azərbaycana çox böyük faydalar verəcəyini düşünürəm. Təbii ki, bizim bu layihəni təkbaşına bitirməyimiz bu gün üçün yetərli deyil və bunun üçün TAP boru xəttinin tamamlanması lazımdır. Belə olduqda həqiqi mənada qaz axışı başlayacaq. Hazırda test olaraq qaz verilməsini uğurla icra etdiyimizi deyə bilərik". Saltuk Düzyol qeyd edib ki, TANAP-ın reallaşacağına inanmayanlar və bunu xəyal kimi görənlər də olub. Bütün bunlara baxmayaraq, hər iki qardaş ölkə bir daha sübut etdi ki, birlikdə çox böyük layihələrə imza ata bilər: "Belə meqalayihələr tamamlanmadan yarımcıq qalır. Tarixdə buna nümunələr çoxdur. Düşünürəm ki, bu layihələrin reallaşmasının özəyində Azərbaycan və Türkiyə prezidentlərinin iradəsi və qərarlılığı dayanır. Onların sayəsində Azərbaycanda və Türkiyədə layihəyə çox böyük dəstək verildi. Xüsusilə Türkiyənin dörd bir yanında yol xəritələri olan TANAP-a türk xalqı da dəstək verdi. Bu dəstəyi, həmçinin, Azərbaycanın hər bir fərdindən gördük. Bir sözlə, Türkiyə və Azərbaycan tarix yazdı".

Beləliklə, proseslərin axarı göstərir ki, "Cənub Qaz Dəhlizi"nin ərsəyə gəlməsində mühüm rol oynayan TANAP Azərbaycan təbii qazını Avropaya nəql etməyə tam hazırdır. Avropaya bu fonda yeni mənbədən, yəni ilk dəfə olaraq Xəzərdən təbii qaz 2020-ci ilin ikinci yarısında "Cənub Qaz Dəhlizi" vasitəsilə çatdırılacaq. Açıq dənizlərə çıxışı olmayan ölkəmizin daha bir qlobal layihə ilə dünyanın enerji xəritəsini yenidən tərtib etməsi Azərbaycanın perspektiv inkişafına, valyuta gəlirlərinin artmasına da ciddi surətdə təsir göstərəcək. Eləcə də bu layihə bütün tərəflərin maraqlarının təmin olunmasına və qarşılıqlı faydalı qlobal əməkdaşlıq mühitinin yaradılmasına yeni təkan verir.

***Nahid SALAYEV***

**Rusiyanın Krasnodar diyarının Armavir şəhərində erməni faşist cəlladı Qaregin Njdenin xatirə lövhəsi sökülüb. Armavirdə erməni nasistə xatirə lövhəsinin qoyulması, faşist havadarının qəhrəmanlaşdırılması Azərbaycan və Rusiya ictimaiyyətində haqlı narazılığa səbəb olmuşdu.**

# Faşist Njdenin heykəli dağıdıldı - Ermənistan cəmiyyətində İlham Əliyevlə bağlı böyük etiraf...

***Hatəm Cabbarlı:** ”Bu həm də Ermənistanın xarici siyasətinin və Rusiyadakı diaspor fəaliyyətinin uğursuzluğa düçar olması kimi dəyərləndirilməlidir”*



Nasist havadarının xatirəsinin əbədiləşdirilməsi Böyük Vətən Müharibəsi zamanı alman faşistlərinə qarşı döyüşdə qanını tökmüş insanların xatirəsinin təhqir olunması kimi qəbul edilirdi. Njde müharibə zamanı həm də arxa cəbhədə strateji obyektlərdə, o cümlədən, dəmir yollarında partlayışlar törətməyə qadir diversantların hazırlanması ilə məşğul idi. Bir sözlə, müasir beynəlxalq hüquq dilində desək, o, beynəlxalq terrorçu olub. Njdenin əsas şüarı belə idi: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur".

Qeyd edək ki, Ermənistanda faşist Njdenin qəhrəman obrazının yaradılması ilə bağlı məsələni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasında qaldırıb. Dövlət başçısı faşistlərin qəhrəman kimi qələmə verilməsini qətiyyətlə pisləyib. Azərbaycan Prezidenti MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer olmadığını vurğulayıb.

Prezident İlham Əliyev 2019-cu ildə Rusiya Xarici İşlər Nazirliyinin təqdim etdiyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrıseçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzədən sitat gətirərək deyib ki, Ermənistanın keçmiş hakim Respublikaçılar Partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb. Ermənistan paytaxtının mərkəzində faşist cəlladı və satqın Qaregin Njdeyə heykəl qoyulmasını kəskin şəkildə pisləyən və bunu faşizmin təbliği kimi dəyərləndirən Azərbaycan Prezidentinin bu çıxışı geniş əks-səda doğurdu.

Xatırladaq ki, bu günlərdə Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradov nasist havadarı Njdenin xatirə lövhəsinin üstünü qara rənglə boyamışdı.

Rusiyaın qəbul etdiyi bu qərar Ermənistanın daxilində də böyük əks-səda doğurub. Onlar bunu İlham Əliyevin gündəmə gətirməsilə yanaşı, həm də Rusiya-Türkiyə tandeminin Ermənistana olan təzyiqi kimi qiymətləndirirlər. Hətta burada 1921-ci ildə Rusiya ilə Türkiyə arasında imzalanan Qars müqaviləsi və onun 100 illiyinin yaxınlaşması arasında da bir əlaqə axtarmağa çalışırlar. Rusiyanın Njde ilə bağlı atdığı bu addım, əslində, nəyin əlaməti sayıla bilər?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistan müstəqilliyini elan etdikdən indiyə kimi terroru dəstəkləyən bir siyasət yürüdüb: "Biz bunu onların istər təhlükəsizlik, istərsə də xarici siyasət kurslarında görürük. Ermənistan həm də İkinci Dünya Müharibəsində faşizmlə birgə SSRİ-yə qarşı döyüşmüş şəxsləri özlərinə qəhrəman edir. Belə "qəhrəmanlardan" biri də Qaregin Njdedir. Onun faşistlərlə əməkdaşlıq etməsinə dair ortada olan məlumatlar təkzibedilməzdir. Rusiya arxivlərindən əldə edilən məlumata görə, o, təxminən 30-dan çox diversantı hazırlayaraq cəbhə arxasına göndərməklə məşğul olub. Bu məsələ doğrudan da Prezident İlham Əliyev tərəfindən gündəmə gətirildi. Bunu yerində atılan addım və təqdirəlayiq hadisə sayıram. Məsələ gündəmə gətiriləndən sonra Rusiya mətbuatı tərəfindən də geniş işıqlandırıldı. Əslində, bu məsələyə Azərbaycandan daha çox Rusiyanın münasibət bildirməsi lazım idi. Xatırlayırsınızsa, hər il 9 May günü Rusiya gəncləri "Georgi lenti" paylayırlar. Belə aktiv təşkilatlar məhz bu məsələnin üstünə getməliydilər. Ancaq, gördüyümüz kimi, bu addımı ilk dəfə cənab Prezident atdı. Azərbaycan və Rusiyanın tələbi Njdenin Ermənistanda ucaldılan heykəlinin götürülməsi ilə bağlı idi. Ancaq Armavirdəki proses önə keçdi. Burada Rusiya ictimai rəyinin rolunu yüksək qiymətləndirməliyik. Ermənistan mətbuatı bu məsələyə ciddi reaksiya verir və Paşinyanı məsələyə kəskin reaksiya verməməkdə ittiham edir. Biz gördük ki, İlham Əliyev məsələni ilk dəfə qaldıranda Nikol Paşinyanın verdiyi cavab çox süni və sönük oldu. Çünki onun bu mövzuda irəli sürəcək tutarlı arqumentləri yoxdur.

Bunu, birmənalı olaraq, Azərbaycanın qələbəsi, Ermənistanın isə məğlubiyyəti kimi qəbul edə bilərik. Bu məsələnin Rusiyada həyata keçirilməsi xüsusi diqqətə layiqdir. Çünki Rusiya faşizm üzərində qələbəni rəsmi dövlət səviyyəsində qeyd edir. Bu həm də Ermənistanın xarici siyasətinin və Rusiyadakı diaspor fəaliyyətinin uğursuzluğa düçar olması kimi dəyərləndirilməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

**Noyabrın 30-da Azərbaycan Xalq Hərəkatı Lökbatan qəsəbəsində yerləşən "Neftçi" bazasına məxsus olan stadionda mitinq keçirib. Tədbir Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılıb. Mitinq "Qarabağa azadlıq" şüarı ilə keçirilib, eyni məzmunda plakatlar qaldırılıb. Ancaq sözügedən mitinq çox uğursuz alınıb.**

# Azərbaycan Xalq Hərəkatının mitinq cəhdi "bir payız axşamı" kimi puç olub getdi...

***Məhəmməd Əsədullazadə:** ”Xalq bu şarlatanların tədbirinə heç vaxt kütləvi şəkildə qatılmaz”*




Vur-tut 450 nəfərədək adam aksiyaya qatılıb.

Mitinqin iştirakçıları müxalifət partiyalarını da mitinqə gəlmədiklərinə görə tənqid edərək "18 kilometrlik yolu gələ bilməyən 300 kilometri necə gedib Qarabağı azad edəcək?" fikrini səsləndiriblər. Hansı ki, neçə ay idi təbliğat aparırdılar. Guya güclü mitinqin baş tutacağını bəyan edirdilər. Cəmi saatyarım davam edən aksiyada iştirak edənlərin tam əksəriyyəti Lökbatana niyə yollandıqlarını, konkret olaraq hansı qurumun, təşkilatın mitinqinə qatıldıqlarının fərqində deyildilər.

Mitinqə gələnlərin çoxu "Qarabağ mitinqinə gəlmişik" söyləyirdilər. Təşkilatçının kimliyini soruşanda isə "Mirmahmud ağa çağırıb" deyirdilər. Fəqət, Londona sığınan və "AzeriFreedom TV" adlı "YouTube" kanalı vasitəsilə hər gün minimum 4 saat kamera qarşısında oturub Azərbaycanı, azərbaycanlıları və ümumiyyətlə, ölkə vətəndaşlarını inqilaba, vətəndaş müharibəsinə, qanlı qırğınlara çağıran Qurban Məmmədov bu aksiyanı az qala milyonların qatıldığı mitinq kimi təqdim etdi. Həmin axşam o, saatlarla mitinqdən danışdı və ən əsası, aylardan bəri hər gün təkrarladığı "Bir payız axşamı" ifadəsinin yeni fonemasını böyük şüar qismində tamaşaçılarına səsləndirdi. Q.Məmmədovun dediklərindən belə bəlli oldu ki, sən demə, Azərbaycan sosial partlayış və siyasi çalxantı astasındadır, hakimiyyət dəyişikliyi qaçılmazdır, milyonlarla insan AXH tərəfdarıdır, siqnal gözləyirlər və s. Ancaq sözügedən mitinqin olduqca miskin atmosferdə keçirilməsi bütün bu deyilənlərin sabun köpüyündən başqa bir şey olmadığını ortaya qoydu.

*”Təəssüf edirəm ki, KXCP sədri Mirmahmud Mirəlioğlu siyasi şarlatan Qurban Məmmədovun bu kimi kirli layihələrində yer alır”*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, AXH-nin mitinqinin fiasko ilə başa çatacağı gözlənilən idi: "Xaricdə oturub avantüra ilə məşğul olan Q.Məmmədovun heç vaxt xalqın adından müxalifətə urcat etmək istəyirlər. Təəssüf edirəm ki, KXCP sədri Mirmahmud Mirəlioğlu siyasi şarlatan Q.Məmmədovun bu kimi kirli layihələrində yer alır. Xalq Hərəkatı özü nədir ki, Azərbaycan xalqının ən ümdə problemi olan Qarabağ adından istifadə edib etiraz danışmağa ixtiyarı yoxdur. Beş-üç nəfər diletant tərəfindən yaradılan Xalq Hərəkatı adında qondarma qurumdan heç xalqın xəbəri yoxdur. Bu ad altında özlərini siyasi aksiyası keçirir? Onların məqsədi xarici düşmənlərə Qarabağ barədə xalqın düşüncəsini göstərməkdir. Xalq heç vaxt Q.Məmmədovu tanımayıb və tanımır və belə bir qurumun Qarabağ adından istifadə etməsi xəyanətkarlıqdır.

Göründüyü kimi, bu mitinqə çox az sayda adam qatıldı. Onlar da bəzilərinin ailə üzvləri olub. Xalq bu şarlatanların tədbirinə heç vaxt kütləvi şəkildə qatılmaz. Mirmahmud da bunları bilə-bilə bu avantüristlərin yanındadır. Bir müddət sonra Q.Məmmədovla Mirmahmudun bütün qırmızı cizgiləri aşan, bir-birinə qarşı təhqirlərinin şahidi olacağıq. Q.Məmmədov və Mirmahmud bu addan istifadə edib xalqa xəyanət edirlər. Bunların siyasi gələcəyi yoxdur".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan ordusunda fərariliyin əsl kökü - təcavüzkar müharibə... Hökumət isə hərbi qanunvericilikdə dəyişikliklərə başlayır...

**Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə hələ də ciddi əngəl yaratmaqda davam edən Ermənistanda bu gün problemlərin özünü qabarıq göstərdiyi sahələrdən biri də ordu ilə bağlıdır. Ümumiyyətlə, son illərin real mənzərəsi düşmən ordusunun tənəzzlünün daha da sürətləndyini aydın nümayiş etdirir. Bu fonda ordudan yayınma halları da getdikcə çoxlamaqdadır.**

Ekspertlər bildirir ki. Ermənistan ordusunda vətəndaşların və hətta hərbi qulluqçuların özlərinin belə xidmətdən yayınmaları heç də təsadüfi hal deyil. Belə ki, Ermənistan ordusunda qanunsuzluq hallarının hələ də geniş yayılması vətəndaşların və hərbi qulluqçuların xidmətdən yayınmasına başlıca səbəbdir. Elə bu fonda erməni ordusu maddi-texniki, şəxsi heyətlə təminat baxımından əvvəlki dövrlərlə müqayisədə indi daha ciddi çətinliklər yaşayır. Yaranmış durumda ölkə üçün ciddi problemə çevrilən məsələlərdən biri də qeyri-döyüş şəraitində həyatını itirən əsgərlərlə bağlıdır. Belə əsgərlərin valideynləri hakimiyyətin bu məsələyə etinasızlığından cana doyduqlarını bildirir və ölkə rəhbərliyinin hələ də onları aldatdığını bəyan edirlər. Əsgər valideynlərinin etiraz aksiyalarının yenidən intensivləşməsi də bunun sübutudur. Bu günlərdə isə Ermənistan baş prokurorluğu məlumat verib ki, cari ilin ilk 9 ayı ərzində Ermənistan silahlı qüvvələrinin 39 hərbçisi ölüb. İşğalçı ölkədə 16 hərbçi xidmət zamanı, 23 hərbi qulluqçu isə qeyri-müəyyən şəraitdə dünyasını dəyişib. Qeyri-rəsmi rəqəmlər isə itkilərin sayının bundan ən azı iki dəfə çox olduğunu üzə çıxarır. Bunlardan əlavə, Ermənistan ordusunda baş verən fərarilik, döyülmə, rüşvət, korrupsiya, intihar, təcavüz və digər nizamnamədənkənar halların sayı da dəfələrlə artıb. Məhz bu ordu ilə Ermənistanın indiki Qarabağ siyasətini davam etdirməsi də mümkünsüz sayılır.

Hadisələrin real inkişaf axarı isə qarşıdakı dövr ərzində də düşmənin ordu ilə bağlı problemlərinin sadəcə dərinləşməyə davam edəcəyini göstərir. Bu xüsusda diqqət cəlb edən başlıca məqamlardan biri isə ordudan yayınıb, sonradan müəyyən həcmdə cərimə ödəməklə cianyət məsuliyyətindən yayınanlarla bağlıdır. Xatırladaq ki, Ermənistan parlamenti 2018-ci ilədək 27 yaşı tamam olan və hərbi xidmətdən yayınan vətəndaşların müvafiq cərimə ödədikləri halda cinayət məsuliyyətindən azad edilməsi barədə qanun qəbul edib. Hesablamalar göstərir ki, hazırda Ermənistanda hərbi xidmətdən yayınan gənclərin sayı 11 mindən çoxdur. Onların bir hissəsi müvafiq cərimə ödəməklə cinayət məsuliyyətindən yayınıb. Digərlərinin böyük əksəriyyəti isə Ermənistandan xaricdədir və ölkəyə qayıtmaq istəmirlər. İndiki Ermənistan qanunvericiliyinə görə, həqiqi hərbi xidmət keçməyən, lakin yaşı 27-yə çatan vətəndaşlar cinayət məsuliyyətindən qaçmaq üçün 3,5 milyon dram, yəni təxminən 7500 dollar məbləğində cərimə ödəməlidir. İndiyə qədər ölkənin dövlət büdcəsi hərbi xidmətdən yayınaraq xaricə qaçan ödəniş qabiliyyətli gənclərin vəsaiti hesabına xeyli gəlir əldə edib. Bu hal ölkəni böyük sosial-iqtisadi problemlər məngənəsinə düçar edən Nikol Paşinyan iqtidarının da diqqətini daha çox cəlb etməyə başlayıb. Elə bu səbəbdən cərimənin məbləğinin iki dəfə artırılması üçün hazırlıq işlərinə start verilib. Bu xüsusda müvafiq qanun layihəsi də hazırlanıb. Layihənin müəllifləri parlamentin deputatları Arman Babacanyan, Andranik Köçəryan və Mxitar Hanrapetyandır. Qanun layihəsinin müəlliflərindən ikisi, yəni Arman Babacanyan və Mxitar Hanrapetyan ümumiyyətlə orduda xidmət etməyib. Qanun layihəsinə görə, ödənişin buraxılan çağırışların sayına görə deyil, sərhədi qoruyan müqaviləli hərbi qulluqçunun əmək haqqının həcmi ilə hesablanması nəzərdə tutulur. Bununla da təklif olunur ki, 27 yaşı tamam olan Ermənistan vətəndaşı və ordudan yayındığına görə cinayət təqibinə məruz qalan şəxs ən yüksək əmək haqqı alan müqaviləli hərbi qulluqçunun 2 illik əmək haqqı qədər cərimə ödəməlidir. Bununla da o, qanunla nəzərdə tutulan haqq-hesabını ödəmiş və Ermənistana qayıtmaq hüququ əldə etmiş hesab olunur. Yeni qanun 27 yaş tamam olduqdan sonra belə hərbi xidmətə getməyə imkan verir. Lakin hazırda qüvvədə olan qanunvericilik bunu qadağan edir. Jurnalistlər "Ordudan yayınan və axtarışda olan şəxslər üçün həddindən artıq yüksək məbləğ olduğunu hesab etmirsiniz? Sizin təklif etdiyiniz dəyişikliyə əsasən 5-6 milyon dram ödəniş tələb olunur. Bu halda ölkəni tərk etməyi təşviq edə və ən zəngin şəxslərin övladlarına yardım etmiş olacağınızdan ehtiyat etmirsiniz", deyə Ermənistan parlamentinin deputatı Arman Babacanyana sual ünvanlayıblar. O bildirib: "Tam əksinə, bu layihənin əsas məqsədi ondan ibarətdir ki, ölkəni tərk etmənin qarşısı alınsın. Sizin dediyiniz problemə əks tərəfdən yanaşmaq lazımdır. Adam bilir ki, ölkəni tərk edə bilər və illər sonra daha az vəsaitlə övladının ordudan yayınmaqla bağlı problemlərini həll edə bilər. Bu halda həmin ödəniş məbləği hiss ediləcək dərəcədə artırılırsa, həmin şəxs ölkəni bu məqsədlə tərk edib-etməməyi fikirləşməli olacaq. Bu və ya digər sosial təbəqəyə dəstək verilməsinə gəldikdə isə, bu qanunun belə bir məqsədi yoxdur. Bu qanunla qazanacaq yeganə tərəf Silahlı Qüvvələrdir. Əslində bu yüksək ödəniş məhz bu məqsədlə ortaya çıxıb. Biz ön xəttə xidmət edən hərbi qulluqçunun 2 illik əmək haqqını və əlavə ödənişlərini hesablamışıq və bunun nəticəsində qeyd edilən məbləğ ortaya çıxıb. Mən əmin edirəm ki, bu vəsaitin tutulması birbaşa büdcənin doldurulması yox, həmin vəsait hesabına daha çox müqaviləli hərbi qulluqçunu ön xətdə hərbi xidmətə cəlb etmək məqsədi daşıyır. Bu yolla cəbhə xəttini mümkün qədər müddətli xidmət hərbi qulluqçularından azad etmək imkanı əldə ediləcək". Ermənistan müdafiə nazirinin sabiq müavini, general-leytenant Qaqik Melkonyan isə hesab edir ki, bu qanun layihəsi orduya böyük ziyan vuracaq: "Mənə elə gəlir ki, heç kim 5-6 milyon dram verib geri qayıtmayacaq. Bir çoxları hər hansı şəkildə həmin 3,5 milyon dramı ödəməklə geri qayıtmağa razı idi. Lakin bu qanun qəbul edilərsə, demək olar ki, onlardan 50 %-i artıq geri qayıtmaq niyyətində olmayacaq. Bu qədər vəsaiti o toplaya da bilməz. O bunu tapa bilməyəcək və heç gəlməyəcək, büdcə də doldurulmayacaq". Melkonyanı, həmçinin qanun layihəsinin 27 yaş tamam olduqdan sonra arzu edənlərin hərbi xidmət edə biləcəkləri ilə bağlı müddəası da təəccübləndirir: "30 yaşında əsgər gəlib 18 yaşında olan əsgərlə bir yerdə xidmət edəcək? Aradakı fərq çox böyükdür. Bu xidmət alınmayacaq. Bu şəxslər üçün alternativ hər hansı bir xidmət növü fikirləşərlərsə, bu, başqa bir məsələdir. Lakin onun gəlib 18 yaşlılarla birlikdə xidmət etməsi özü üçün həlledilməz bir çox problemlərə səbəb olacaq". Melkonyan hesab edir ki, qanunun qüvvədə olma müddətini 1 il daha artırmaq doğru olardı.

Bu arada daha bir diqqət çəkən məqam Ermənistan parlamentinin hakim fraksiyasını təmsil edən deputat Hayk Sarkisyanın tezləşdirilmiş şəkildə hərbi xidmət haqqında qanunun qəbul edilməsi ilə bağlı təklifidir. Burada qeyd olunur ki, sürətləndirilmiş qaydada hərbi xidmət keçən şəxs Ermənistanın dövlət büdcəsinə 10 milyon dram ödəməlidir. Həmin şəxs 1 ay müddətində xüsusi sürətləndirilmiş qaydada hərbi xidmət keçəcək və 1 ay müddətindən sonra tərxis olunacaq. "Joğovurd" qəzeti bu xüsusda yazır: "Ermənistan Müdafiə Nazirliyi bu məsələyə niyə səssiz qalır? Hərbi xidmət vətən və sərhədlərin toxunulmazlığını təbliğ etmək əvəzinə, zənginlərin hərbi xidmətdəki elit bir aylığına Müdafiə Nazirliyi əl çalır. Qoşundan və əsgər həyatından qaçan hansı fərari bu elit hərbi bal ayını sifariş verib?" Bütün bunlar göstərir ki, hakimiyyət orduya qazanc mənbəyi kimi yanaşır. Elə bu fonda da orduya münasibətdə Ermənistan cəmiyyətində yaranan parçalanma getdikcə daha dərin kök salmaqdadır. "Joğovurd" qəzeti qeyd edir ki, baş nazir və məmurlar mütəmadi olaraq silahlı qüvvələrdə korrupsiya risqlərinin azaldığını, orduda yeni münasibətlərin tətbiq edildiyini desə də, vəziyyətdən asılı olmayaraq, ordunun çöküşü davam edir: "Orduya qazanc mənbəyi kmi yanaşıldıqda başqa nəticələr də gözləmək olmazdı. Bütün problem ondadır ki, orduda sistemli islahatlar aparılmayana qədər orada hansısa inkişaf da olmayacaq. Korrupsiya, özbaşınalıq aradan qaldırılmayınca, insan itkisi olacaq, bu da cəmiyyətin orduya etimadının itməsinə gətirib çıxaracaq". Bu durumda erməni ekspertlərinin gəldiyi ümumi rəyə əsasən, Qarabağla bağlı yeni müharibə Ermənistan üçün yaxşı heç nə vəd etmir. Erməni hərbi ekspert İqor Muradyan qeyd edir ki, artıq yaranmış vəziyyətdən istifadə etməyə çalışan Azərbaycan hərbi uğura daha tez bir müddətə nail olmağın ssenarisini hazırlayır. Onun fikrincə, bu da Ermənistanın hərbi və maddi mənada ciddi itiklər verməsinə gətirib çıxara bilər. Ekspertlər də bildirir ki, həm təşkilati, həm silahlanma, həm də döyüş taktikası, strateji planlama kimi istiqamətlərdə erməni ordusu Azərbaycan Silahlı Qüvvələrindən çox geridə qalır. Aydındır ki, bu kimi məqamlar Azərbaycan ordusu qarşısında Ermənistan silahlı qüvvələrinin dayana bilməyəcəyini sübut edir. Ermənistan rəhbərliyi bu reallığı nəzərə alıb Qarabağ münaqişəsinin dinc müstəvidə həlli məqsədilə əməli addımlar atmasa, ordumuzun gücünü yenidən hiss edəcək.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Oktyabrın 29-da Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strukturunun təsdiqi edilməsi haqqında Sərəncam imzalayıb. Məlum oldu ki, yeni strukturda bəzi dəyişikliklər edilib və bir sıra şöbələr ləğv olunub.**

# Prezident Administrasiyasında Aqrar şöbə niyə ləğv olundu...



***Vüqar Bayramov:** "Nəzərə almaq lazımdır ki, aqrar siyasət iqtisadi siyasətin tərkib elementidir"*

Ləğv olunan şöbələrdən biri də Aqrar siyasət məsələləri şöbəsidir. Qeyd edək ki, həmin günə qədər şöbəyə rəhbərlik edən, eyni zamanda, Prezident İlham Əliyevin aqrar siyasət məsələləri üzrə köməkçisi olan Azər Əmiraslanov vəzifəsindən azad olunub.

Bildirək ki, aqrar siyasətin inkişaf etdirilməsi dövlət siyasətinin əsas prioritetlərindən biridir. Bu sektorun inkişaf etməsi üçün dövlət tərəfindən bir sıra layihələr həyata keçirilib, işlər görülüb.

Maraqlıdır, aqrar siyasət məsələləri şöbəsi niyə ləğv olundu və onu hansı qurum əvəz edəcək?

İqtisadçı-ekspert Vüqar Bayramov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Prezident Administrasiyasında iqtisadi məsələlərlə bağlı iki şöbə mövcuddur: "Nəzərə almaq lazımdır ki, aqrar siyasət iqtisadi siyasətin tərkib elementidir. Ehtimal olunur ki, Aqrar məsələlər şöbəsi birbaşa İqtisadi siyasət şöbəsinə bağlı olacaq. Onu da deyim ki, iqtisadi siyasətlə bağlı şöbənin olması imkan verir ki, iqtisadi sektora aid olan bölmələrə bu şöbədə nəzarət olunsun".

*"...İqtisadi siyasət şöbəsi vasitəsilə prosesin tənzimlənməsi daha məqsədəuyğundur"*

Həmsöhbətimizin sözlərinə görə, Aqrar siyasət məsələləri şöbəsinin ləğv olunması və ya birləşdirilməsi gözlənilən idi: "Məlumat üçün bildirim ki, Aqrar siyasət şöbəsi yaradılan zaman bir sıra suallar yaranmışdı. O zaman qeyri-neft sektorunun digər sahələri üçün ayrıca şöbələrin yaradılması müzakirə olundu. Xüsusilə də turizm üçün ayrıca şöbənin yaradılması. Ancaq nəzərə almaq lazımdır ki, aqrar sahə, istərsə də turizm iqtisadiyyatın tərkib elementləridir. İqtisadi şöbəsi vasitəsilə prosesin tənzimlənməsi daha məqsədəuyğundur.

**Son illər aparılan araşdırmalar göstərir ki, maliyyələşmə, sığorta, bazara çıxış imkanları aqrar sektorun inkişafını stimullaşdıran və müəyyənləşdirən faktorlardır. Hesab edirəm ki, aqrar sahənin inkişafına kompleks yanaşılması çox vacibdir. Bu yanaşma iqtisadi siyasət çərçivəsində həyata keçirilə bilər".**

*Günel CƏLİLOVA*

---

**Son günlər tələbələr arasında magistraturaya qəbul imtahanlarının II mərhələsinin ləğv olunacağına dair məlumatlar yayılıb. Bəzi tələbələrin sözlərinə görə, müəllimlərin əksəriyyəti onları II mərhələ üzrə hazırlaşdırmaqdan imtina ediblər.**

# Magistraturaya qəbulun ikinci turunun ləğv edilməsi ideyasına böyük etirazlar var...



***Kamran Əsədov:** "Magistratura imtahanları sadələşdirilsə, daha çox şəxsin magistratura pilləsinə qəbul olunmasına imkan yarana bilər"*

***Rəşadət Şərifov:** "Universitet imtahanları vahid sistemə keçirilərsə..."*

***İlqar Orucov:** "Magistraturaya qəbulun ikinci mərhələsinin keçirilməsi vacibdir"*

Dövlət İmtahan Mərkəzinin yaydığı məlumatda qeyd olunur ki, magistraturaya qəbul imtahanlarına dəyişikliklərin edilməsilə bağlı yeni qaydalar müzakirə mərhələsindədir. Məlumatda qeyd olunur ki, imtahanda yeniliklərin edilməsi istiqamətində müəyyən təkliflər var. Müzakirələr başa çatdıqdan sonra ictimaiyyətə geniş məlumat veriləcək.

Magistraturaya qəbul imtahanlarının ikinci mərhələsinin ləğv olunması sosial şəbəkələrdə geniş müzakirə olunur. Bakalvr təhsilini davam etdirmək istəyənlər isə bundan narahatlıq keçirirlər.

Ekspertlər təklif edirlər ki, bakalavrların elmə maraq göstərməsi üçün magistraturaya qəbul daha da sadələşdirilməlidir.

Təhsil məsələləri üzrə ekspert Kamran Əsədov bildirdi ki, ikinci mərhələnin ləğv olunması inandırıcı deyil. Onun fikrincə, magistratura imtahanlarının təkmilləşdirilməsinə ehtiyac var: "Birincisi, ona görə ki, 5 il əvvəllə müqayisədə magistratura pilləsinə sənəd təqdim edənlərin sayında kəskin azalma var və müəyyən qədər plan yeri boş qalır. Məhz magistratura imtahanları sadələşdirilsə, daha çox şəxsin magistratura pilləsinə qəbul olunmasına imkan yarana bilər. İkincisi, magistratura imtahanının birinci mərhələsindəki məntiq və informatika fənnindən təqdim edilmiş test tapşırıqları ədalət prinsipinin pozulmasına gətirib çıxarır. Ali məktəblərdə bu fənlər üzrə tədris olunmayan mövzulardan ağırlaşdırılmış test tapşırıqları təqdim olunurdu. Nəzərə alsaq ki, magistratura imtahanının ikinci mərhələsində iştirakçıların ixtisasları üzrə bilik və bacarıqları yoxlanılır, bu zaman ikinci mərhələ ləğv oluna bilməz. sadəcə olaraq, təqdim ediləcək test tapşırıqlarının sayında, formatında dəyişiklik edilə bilər. Həyata keçiriləcək dəyişiklik növbəti ildə seçim zamanı ballara da təsir göstərəcək. Belə ki, ixtisas seçimi zamanı əvvəlki illərdə formalaşmış balları istiqamət kimi götürəcək bakalavrlar dəyişiklikdən sonra yanıla bilərlər. Bütün hallarda, hesab edirəm ki, magistratura imtahanları ali təhsilin əlçatanlığı və əhatə dairəsinin genişləndirilməsi prinsiplərinin təmin olunması, gənclərin elmə gəlməsi üçün sadələşdirilməli, daha çox imtahan iştirakçılarının dil və ixtisasları üzrə bilik və bacarıqları yoxlanılmalıdır".

Magistratura pilləsi üzrə təlimçi Rəşadət Şərifov isə qeyd etdi ki, bu dəyişikliklərə hələ hazır deyilik: "Belə bir yeniliyin reallaşması üçün bütün universitetlərdə bərabər imtahan mühiti yaratmaq lazımdır. Bəzi ali məktəblərdə imtahanlar testlə, bəzilərində isə yazılı təşkil olunur. İkinci mərhələ əvəzinə universitet ortalaması əsas götürülsə, tələbələr üçün bərabər şərait yaradılmamış olur. Universitet imtahanları vahid sistemə keçirilərsə və qiymətləndirmə tam şəffaf aparılarsa, o zaman ikinci mərhələni ləğv etmək olar".

Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, magistraturaya qəbulun ikinci mərhələsinin keçirilməsi vacibdir: "Nəzərə almaq lazımdır ki, magistratura həm ali təhsilin davamı, eyni zamanda, elmi tədqiqatlara başlanışın ilk dövrüdür. Bu baxımdan magistraturaya qəbulun ikinci mərhələsinin keçirilməsi əhəmiyyətlidir.

Onu da bildirim ki, imtahan prosesi zamanı imtahan verən şəxs müəyyən səbəblərdən sualların cavabını düzgün qeyd edə bilmir. İstər psixoloji narahatlıq, istərsə də həyəcan və ya səhhətində yaranmış problemə görə imtahan verən şəxs imtahanda qeyd olunan sualları düzgün cavablandıra bilmir. Bu baxımdan magistraturaya qəbulun ikinci mərhələsi ləğv olunmamalıdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, magistraturaya qəbulu asanlaşdırmaq lazımdır: "Danılmaz faktdır ki, Azərbaycanda istər bakalavr və ya magistraturaya qəbul olunmaq çox çətindir. Universiteti bitirmək isə çox asandır. Ancaq xarici ölkələrdə isə ali təhsil müəssisəsinə qəbul olunmaq heç də çətin deyil. Müəyyən proqramları mənimsəmiş istənilən şəxs həm bakalavr, həm də magistratura pilləsində təhsil ala bilər. Bu səbəbdən də hesab edirəm ki, universitetlərin qapısı daim gənclərin üzünə açıq olmalıdır".

*Günel CƏLİLOVA*

**Araşdırmalar göstərir ki, bu gün Azərbaycandan valyutanın xaricə axmasına rəvac verən əsas sahələrdən biri də tekstil sənayesi ilə bağlıdır. Ölkəyə geyim məhsullarının idxalının artması hər il külli miqdarda valyutanın xaricə getməsinə rəvac verir. Hesablamalar göstərir ki, 2019-cu ilin yanvar-oktyabr aylarında xaricdən gələn geyim vasitələrinə 341 milyon dollardan artıq vəsait sərf olunub.**

# Geyim sahəsində xaricdən asılılığımızı gücləndirən neqativ faktor - emal müəssisələri niyə azlıq edir...

2018-ci ilin ilk 10 ayında isə eyni məqsədlər üçün 321 milyon dollar vəsait sərf edilmişdi.

Bu il adıçəkilən istiqamətdə 6,2 faizdən çox artım qeydə alınıb. Halbuki, yerli istehsal hesabına da idxal məhsullarının böyük bir hissəsini əvəzləmək mümkündür. Düzdür, son dövrlərdə yerli istehsal da artır. Rəsmi statistikaya əsasən, 2019-cu ilin ilk 10 ayında toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində 332,4 milyon manat dəyərində məhsul istehsal edilib. Amma yerli istehsaldakı artım idxaldakı artımın qarşısını ala bilmir. Ekspertlər bildirir ki, bunun ümdə səbəbi yerli isthesal həcminin hələ də daxili tələbat üçün az olması və ən əsası, emal sənayelərinin sayının kifayət qədər olmamasıdır. Məsələn, məlumdur ki, son illərdə Azərbaycanda pambıq istehsalı xeyli artıb. Amma pambığın böyük hissəsi hələ də xam məhsul şəklində xaricə satılır. İqtisadçılar isə bildirir ki, pambığın xammal formasında deyil, emal edilərək ixrac olunması daha məqsədəuyğundur. Bu, həm də iqtisadi diversifikasiya baxımından vacibdir. Eləcə də, belə olan təqdirdə Azərbaycanda yüngül sənayenin inkişafı daha dinamik xarakter alar. Pambıqçılığın həm də emaledici istiqamətdə formalaşması idxalın azalmasına gətirib çıxaracaq. Bununla bir sıra tələb olan məhsulları yerli istehsal hesabına ödəmək mümkün olar. Eləcə də pambıqçılıqla bağlı emal sektorunun inkişaf etdirilməsi həm idxaldan asılılığın aradan qaldırılmasına, həm yeni iş yerlərinin açılmasına, həm də valyutanın ölkə daxilində qalmasına şərait yaradacaq. Bu baxımdan vacibdir ki, pambıqdan yalnız xammal kimi deyil, yeni istehsal sektorlarını inkişaf etdirməklə, həm də məhsul əldə olunsun. Emal prosesinin bərpası həm pambıqçılığın inkişaf etdirilməsinə, həm də yerli istehsalın artırılması hesabına idxaldan asılılığın azaldılmasına gətirib çıxarmaq iqtidarındadır. Biznes menecer Səbuhi Rüstəmov isə məsələnin başqa tərəflərinə də nəzər salır: bildirib ki, ölkədə adi tikiş aksesuarlarının istehsalı mövcud deyil: "Məsələn, hər hansı bir geyim üçün astar parça, düymə, tikiş sapları xaricdən idxal olunur: "Bunlara əlavə gömrük rüsumları tikiş məhsullarının, geyim məhsullarının, hazır məhsulların maya dəyərinin daha yüksək olmasını təmin edir. Bu zaman yerli məhsulların idxal məhsulları ilə rəqabət aparması çətinləşir. Gömrük rüsumları aşağı salınarsa, gələcəkdə idxaldan asılı olan məhsulların maya dəyəri ən az 15 faiz aşağı düşəcək. Azərbaycanda istehsal olunan tekstil məhsullarının xarici məhsullarla müqayisədə nə dərəcədə rəqabətə davamlı olduğuna gəldikdə, tekstil fabrikləri beynəlxalq sertifikatlara malikdir. Bu da onun göstəricisidir ki, Azərbaycanda da keyfiyyətli məhsullar istehsal oluna bilər. Sadəcə, bəzi çətinliklərin aradan qaldırılması üçün dəstəyə ehtiyac var. Rüsumların azaldılması tikiş istehsalının inkişafına gətirib çıxaracaq". O da qeyd edir ki, istehsal olunan pambığın böyük bir hissəsi xammal şəklində ixrac olunur: "Amma bunun həm də emalını dərinləşdirmək və hazır məhsullar edərək ixracına nail olmaq olar. Pambıq istehsalının artması toxuculuq məmulatlarının idxalına xərclənən vəsaitin də azalmasına səbəb olacaq. Burada, düzdür, pambıqçılıq məhsulları ilə yanaşı digər məhsullar da var. Amma yerli istehsal təşviq olunandan sonra bu məhsulların da idxalı azalacaq".

Onun sözlərinə görə, ölkəmizdə geyimə olan tələbatın 15 faizi yerli istehsal hesabına ödənir: "Bu da o deməkdir ki, istifadə etdiyimiz paltarların böyük hissəsi xaricdən gətirilir. Həmin məhsullar əsasən Türkiyə, Çin və Avropa ölkələrindən idxal olunur. Xüsusən də Çindən keyfiyyəti nisbətən aşağı olan, amma eyni zamanda qiyməti də yüksək olmayan geyim məhsulları idxal olunur. Nəticədə yerli məhsullar həmin geyim məhsulları ilə rəqabət apara bilmir. Bu, nəticə etibarı ilə ucuz idxal olunan geyim məhsullarının daha çox satılmasına səbəb olur". Digər ekspertlər də bildirir ki, məsələnin həlli üçün yerli emal sənayelərinin iknkişafı daha sürətli hala gəlməlidir. Pambıqla yanaşı, istehsal olunan yunun da yüngül sənayeyə, geyim hazırlanmasına yönəldilməsi olduqca mühümdür.

Ekspertlər bildirir ki, Azərbaycan son istehsal məhsulu ixrac edərsə, daha çox gəlir əldə edər. Burada xatırladaq ki, dünya ölkələri iqtisadiyyatına görə iki kateqoriyaya ayrılır: xammal ixrac edən və son məhsul ixrac edən ölkələr. Hesablamalar və bu günə qədər aparılan tədqiqatlar onu göstərir ki, məhsul istehsalı ilə məşğul olan və bu məhsulları ixrac edən ölkələr daha çox gəlir əldə edir. İstehsal müddətində xammal əlavə dəyər əldə edir. Bu prinsipdən yanaşıldıqda, Azərbaycanda da pambığın, eləcə də xammal şəklində deyil, son məhsul şəklində satışının təmin olunması ölkə üçün yaradılan əlavə dəyərin, eyni zamanda ixracın şaxələnməsinə, yeni valyuta gəlirlərinin axınına müsbət təsir göstərə bilər.



**Amma bunun üçün uyğun infrastrukturun olmasına da ehtiyac var. Düzdür, dövlət dəstəyi sayəsində Azərbaycanda yüngül sənayenin inkişaf etdirilməsi üçün indi bütün şərait var. Pambıqçılığın, yunçuluğun, yüngül sənayenin və ixracın şaxələndirilməsi birbiri ilə əlaqələndirilərsə, geyim üçün xaricə böyük həcmdə valyuta getməsinin də qarşısı alına bilər. Özü də nəzərə almaq lazımdır ki, yerli geyim sənayesi üçün xammalla ölkə kifayət qədər zəngindir.**

***Ramil QULİYEV***

# İnsan hüquqları müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən, onları insanilə şdirən ən əsas meyardır

**İnsan yaranışından ölümünə qədər ona məxsus olan hüquq və azadlıqları ilə yaşayır. İrqindən, dinindən, yaşından və cinsindən asılı olmayaraq Yer üzündə hər bir insanın hüquqları var. İnsanın hüquq və azadlıqları bütövdür, toxunulmazdır, sərbəstdir. Hətta hər hansı səbəbdən cinayət törədərək həbsxanaya düşən insanın da öz hüquqları var.**



Hüququ olmaq, qanadlı quş olub mavi səmanın ənginliklərində pərvazlanıb uçmaq kimidir. İnsan kimi var olmaq özü bir xoşbəxtlikdir. Tanrı insanı Yer üzünün əşrəfi yaradıb və ona duymaq, hiss etmək, sevmək, sevilmək, qurub yaratmaq kimi üstünlüklər bəxş edib. Yaranışından kamil olan insanın yaşamaq, təhsil almaq, ailə qurmaq, övlad dünyaya gətirmək və s. hüquqları var. İntellektli, dünyagörüşlü insan daim öz üzərində çalışaraq irəliyə doğru can atır, qurub yaradır. Azad, hüquqlu, bilikli insan cəmiyyət, dövlət üçün gərəkli işlər görür, ölkəsinin müstəqilliyi, inkişafı üçün öhdəsinə düşən vəzifəni yerinə yetirməyə çalışır.

### Bərabərlik demokratiyanın ən vacib prinsipidir

İnsan hüquqlarının əsas mahiyyəti ondan ibarətdir ki, bütün insanlar eyni hüquqa malik olmalıdırlar. Hər kəsin doğulduğu andan toxunulmaz, ayrılmaz hüquqları və azadlıqları var. Bu hüquq və azadlıqlar şəxsin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə edir. Vətəndaşın hüquqları onun müəyyən dövlətə məxsusluğu ilə bağlıdır və vətəndaşlar dövlət tərəfindən müdafiə olunur. İnsan hüquqları, ümumiyyətlə, ayrılmaz, təməl hüquqlar kimi "bir insana, sadəcə, insan olduğuna görə sahib olduğu" və "bütün insanlara xas olan" əsas hüquqlar kimi başa düşülür. İnsan hüquqları ləyaqət, ədalət, bərabərlik, hörmət və müstəqillik kimi ortaq dəyərlərə əsaslanır. Bu dəyərlər qanunla müəyyən edilir və qorunur. Beynəlxalq ictimai hüquqda onları təsdiqləyən ən məşhur sənəd BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir. Bəyannamədə deyilir: "Hər bir insan onun mənsub olduğu irqindən, cinsindən, dilindən, dinindən, siyasi və digər baxışlarından, milli və sosial mənşəyindən, mülkiyyətindən, doğum və digər hallarından asılı olmayaraq təmin olunmuş insan haqlarına və azad olmaq hüququna malikdir".

### Azərbaycanda həyata keçirilən islahatlar vətəndaşların hüquqlarının müdafiəsinə yönəldilib

Avropada ilk dəfə insan hüquqları anlayışı intibah dövrünə təsadüf edir və ilk dəfə olaraq "insan hüquqları" ifadəsinə 1789-cu ildə qəbul edilmiş Fransanın İnsan və Vətəndaş Hüquqları Bəyannaməsində rast gəlinib. İkinci Dünya Müharibəsindən və Holokost hadisələrindən sonra inkişaf etmiş insan hüquqları hərəkatını canlandıran bir çox əsas fikirlər, BMT-nin Baş Assambleyası tərəfindən 1948-ci il dekabrın 10-da Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbulu ilə nəticələnib.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra beynəlxalq birliyin tamhüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçib. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu müstəqil və demokratik dövlət quruculuğu kursu sürətlə yeniləşən dünyanın tələblərinə cavab verir. Dövlətin inkişaf konsepsiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha da təkmilləşdirilib, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə mütərəqqi dəyişikliklərin edilməsi nəticəsində ölkəmizdə yüksək inkişaf dinamikasına nail olunub. Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur.

Hər bir şəxsin həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları sahəsində 20-dək beynəlxalq konvensiya və sazişlərə qoşulub. Azərbaycan Respublikası 2001-ci il yanvar ayının 25-dən Avropa Şurasının üzvüdür.

### Konstitusiyanın qəbulu dövlət müstəqilliyinin ən mühüm hadisələrindən biridir

Xalqımız bu il noyabrın 12-də müstəqil Azərbaycan dövlətinin tarixində mühüm hadisənin, Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 24 illiyini qeyd etdi. Yeni Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın dünya birliyində nüfuzunun daha da artması baxımından çox mühüm ictimai-siyasi hadisədir. Müxtəlif illərdə (2002, 2009, 2016) referendum yolu ilə Konstitusiyaya bir sıra mühüm əlavə və dəyişikliklərin edilməsi insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunmasına, vətəndaşların həyat səviyyəsinin təmin edilməsinə, demokratiyanın genişlənməsinə və inkişafına yönəldilib.

### Hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur

Bu il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul olunmasının 71 ili tamam olur. Yuxarıda qeyd etdiyimiz kimi, 1948-ci il dekabrın 10-da BMT-nin Baş Məclisi tərəfindən "İnsan hüquqları haqqında ümumi bəyannamə" qəbul edilib. 1950-ci ildən başlayaraq isə hər il dekabr ayının 10-da bütün dünyada "Beynəlxalq İnsan Hüquqları Günü" kimi qeyd olunur. Avropada əsas insan hüquq və azadlıqlarının qorunması üçün Azərbaycan Respublikasının da qoşulduğu 4 noyabr 1950-ci il tarixli Avropa İnsan Hüquqları Konvensiyası mövcuddur. Bu konvensiyanın beynəlxalq müqavilələrdən başlıca fərqi ondan ibarətdir ki, Avropada bu konvensiyaya əsaslanan və eyni zamanda, real işləmə mexanizminə malik əsas insan hüquq və azadlıqlarını qoruyan Avropa İnsan Hüquqları Məhkəməsi fəaliyyət göstərir.

### Dövlətimiz hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir

Yeni Konstitusiyamızın üçdəbir hissəsi insan hüquq və azadlıqlarına, onların təminatına həsr edilib. Konstitusiyamızın 26-cı maddəsinə əsasən, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ vardır. Dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. İstisnasız olaraq, hakimiyyətin bütün qollarına şamil edilən bu öhdəlik insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək, onları müdafiə etmək, dəstəkləmək, eləcə də həyata keçirmək vəzifələrini ehtiva edir.

Azərbaycanın İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulması prosesi milli qanunvericiliyin beynəlxalq Avropa standartlarına uyğun təkmilləşdirilməsi zərurətini yaradıb. Bu istiqamətdə atılan addımlardan ən mühümü Ombudsman təsisatının yaradılması idi. Məhz bu məqsədlə 2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul olunub. 2002-ci il iyulun 2-də Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili postuna Elmira Süleymanova təyin edilib. Ombudsman təsisatının yaradılması da Azərbaycan dövlətinin öz vətəndaşlarının hüquqlarının qorunması məsələsinə olan diqqətinin bariz nümunəsidir. Sülh və dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında ombudsmanların böyük rolu var. Qeyd etmək lazımdır ki, Azərbaycanda insan hüquqlarının qorunması üzrə 3 əsas strateji sənəd qəbul olunub. İndiyədək Ombudsman təsisatı tərəfindən dövlət qurumlarına 700-dən çox təklif verilib və onların əksəriyyəti icra edilib. Bunların içərisində qadın hüquqlarının effektiv təminatı, qanunvericilik islahatları, məişət zorakılığı və qadınlara qarşı zorakılıqla mübarizə sahəsində təklifləri qeyd etmək olar. Bundan başqa, indiyədək 11 amnistiya aktı qəbul edilib və bu akt on minlərlə insana şamil olunub. Ombudsmanın fəaliyyəti dövründə indiyədək 699 məhkum azadlığa buraxılıb.

### Ombudsman insan hüquqlarının müdafiəsinə xidmət edir

Müvəkkilin insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunmasını, ona əməl edilməsini, təmini vəziyyətinin öyrənilməsini, monitorinqini və təhlilini, habelə çatışmazlıqların və pozuntuların aşkar edilməsini, pozulmuş hüquqların bərpasını və pozulmasının qarşısının alınmasını özündə ehtiva edir. Aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında fəaliyyət göstərən müvəkkil Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin insan hüquqlarının pozulmasına dair şikayətlərinə baxır.

Azərbaycan Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Həmin Sərəncamın imzalanmasından artıq 12 il keçir. Bütün bunlar onu deməyə əsas verir ki, ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş insan hüquqları sahəsində strategiya Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

### Şərqdə ilk dəfə qadınlara seçki hüququ Azərbaycanda verilib

Azərbaycanda qadınların hüquqlarının müdafiəsi istiqamətində intensiv işlər görülür. Amerika və əksər Avropa ölkələrində zərif cinsin nümayəndələri seçki hüququndan məhrum olduqları halda 1918-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadına kişilərlə bərabər seçkilərdə iştirak etmək hüququ verilib. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra da mülki cəmiyyətin inkişafında və müstəqil dövlətin qurulmasında qadınların rolu artmağa başlayıb. 1992-ci ildə Azərbaycan BMT və ATƏT- in, 2001-ci ildə isə Avropa Şurasının üzvü olduqdan sonra isə bu təşkilatların hər birinin tərkibində olan gender məsələləri, qadınların vəziyyətinin yaxşılaşdırılması ilə məşğul olan strukturların hər biri ilə sıx əməkdaşlıq təmin edilib.

Azərbaycan qadınları müasir dövrümüzdə rəhbər orqanlarda kişilərlə bərabər çiyin-çiyinə çalışır, azərbaycançılıq məfkurəsinə, milli dövlətçilik ideallarına sədaqət, vətənə məhəbbət ruhunda dövlətçiliyimizin, müstəqilliyimizin qorunmasında öz layiqli töhfələrini verirlər. Birinci vitse-prezident Mehriban Əliyevanın humanitar, elm, təhsil sahələrində həyata keçirdiyi tədbirlər həm Azərbaycanda, həm də başqa ölkələrdə yaşayan qadınlar üçün əsl örnəkdir, eyni zamanda, qadınların cəmiyyətdəki rolunun artırılmasına dəstəkdir. Mehriban Əliyeva Azərbaycanı layiqincə təmsil edən, ölkəmizdə və dünyada xeyriyyəçi, humanist fəaliyyəti ilə seçilən, həmçinin mədəniyyətə, idmana qayğı ilə yanaşan, elm, təhsil, səhiyyə sahələrində respublikada və beynəlxalq miqyasda böyük işlər görən ictimai-siyasi xadim kimi tanınır.

### İnsan hüquqlarına hörmət müasir dünyaya qovuşmağın əsas yoludur

İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur. Təbii ki, sülh və əmin-amanlıq olmadan insan hüquqlarına tam riayət olunması mümkün deyil. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxındır ki, davam edən silahlı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal olunub, 1 milyondan çox soydaşımız adi insan hüquqlarından məhrum edilib. Çətin sınaqlardan çıxan Azərbaycan xalqı mətin iradə, həmrəylik və əzmkarlıq nümayiş etdirərək bəşər sivilizasiyasının idealları olan azadlığı, ədaləti və sülhü özünün inkişaf yolu seçib. Son illər ölkəmizdə insanların azad və təhlükəsiz yaşaması, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində çox ciddi tədbirlər həyata keçirilib. Azərbaycan dövləti ərazi bütövlüyünün, qaçqınların və məcburi köçkünlərin pozulmuş hüquqlarının tam bərpası üçün sülhsevər siyasət apararaq atəşkəsə nail olub, regionda sülhün, əmin-amanlığın təmin edilməsi istiqamətində ATƏT-in Minsk qrupu çərçivəsində və digər beynəlxalq təşkilatların xətti ilə ardıcıl və məqsədyönlü iş aparır. Azərbaycan Prezidenti İlham Əliyev milli əsaslar zəminində dövlətimizin maraqlarını daim müdafiə edərək yüksək siyasi tribunalardan xalqımızın haqq sözünü dünyaya çatdırır. Dövlət başçısının "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı, Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının iclasındakı, eləcə də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə və Dünya dini liderlərinin II Bakı Sammitindəki çıxışları bunu bir daha təsdiqləyir.

Azərbaycan xalqı inanır ki, Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində haqq-ədalət bərpa olunacaq, Ermənistanın işğal altında saxladığı torpaqlarımız azad edildikdən sonra məcburi köçkünlərimiz öz dədə-baba yurdlarına qayıdacaqlar.

***Səadət HAKIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az



# Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**Hər bir dövlətin, cəmiyyətin gələcəyini indiki uşaqlar və gənclər müəyyən edirlər. Bu mənada gənc nəslin düzgün tərbiyəsi, fiziki və mənəvi inkişafı, savadlı vətəndaş kimi böyüməsi və digər vacib amillər onların gələcəkdə cəmiyyətə inteqrasiyasında önəmli rol oynayır.**

Müstəqillik qazandığı ilk gündən dövlətimiz bu sahəyə xüsusi diqqət və qayğı göstərir. Son illər bu diqqət və qayğı daha da artıb. Yeni məktəblərin tikintisi və təmiri, idman infrastrukturunun yenilənməsi, stadionların və olimpiya komplekslərinin inşası və s. deyilənlərə əyani sübutdur. Əlbəttə, hər bir uşağın və gəncin gələcəkdə layiqli vətəndaş kimi yetişməsində onun mənəvi və fiziki tərbiyəsi ilə yanaşı, təhsil də önəmli yer tutur. Digər tərəfdən, bunlar bir-birilə mütləq uzlaşmalıdır.

Psixoloji, mənəvi və fiziki cəhətdən hər bir uşağın sağlam böyüməsi birinci ailədən başlayır. Valideynin övladına düzgün tərbiyə verməsi, onun sağlamlığının qeydinə qalması, düzgün yönləndirməsi vacib amillərdəndir. Bu mənada, ilk növbədə, hər bir valideyn məsuliyyəti dərk etməlidir. Təbii ki, hər bir uşaq, ilk növbədə, ata-anasını ən ideal insan sayır. Əgər valideynlərdə fiziki qüsurlardan başqa hansısa çatışmazlıq olarsa, bu, uşağın psixologiyasına təsirsiz ötüşməyəcək. Daha sonra təhsil aldığı müəssisə və idmanla məşğul olduğu cəmiyyət və ya klub gənc nəslin düzgün istiqamətləndirilməsində mühüm rol oynayır. Valideynlərlə olduğu kimi, müəllimlər də uşaq və gənclərin düzgün tərbiyə almalarına, gələcəkdə cəmiyyətə sağlam düşüncəli vətəndaş kimi inteqrasiya olunmalarına, onların şəxsiyyətlərinin formalaşmasına, milli ruhda böyümələrinə, təhsilə məsuliyyətlə yanaşmalarına birbaşa cavabdehlik daşımalıdırlar.

Son illər sadalananlarla bağlı bir çox irəliləyiş müşahidə olunur. Təhsil sistemində aparılan islahatlar, ölkəmizdə olimpiya hərəkatının geniş vüsət alması bunu deməyə əsas verir.

Uşağın cəmiyyətlə ilk tanışlığı onun məktəbə qədəm qoymasından başlayır. Bununla hər bir uşaq ailədə aldığı tərbiyəni cəmiyyətə daxil edir. Bu zaman cəmiyyətlə uşağın - şəxsiyyətin xarakteri arasında toqquşma baş verir. Məktəb bunu necə tarazlamalı, şagirdlə cəmiyyətin mənəviyyatı arasında necə körpü yaratmalıdır? Əlbəttə, bu, ağır və uzun vaxt tələb edən, özü də şagirdin cəmiyyətə tədricən uyğunlaşması əsas götürülən bir prosesdir. Bu prosesdə təhsil ocaqlarının rolu danılmazdır. Məktəbin pedaqoji kollektivi hər bir şagirdin ailədə formalaşan xarakterini öyrənməli, cəmiyyət üçün qəbul olunmayan xüsusiyyətləri islah etməli, ona gələcəkdə vətəndaş kimi yetişməkdə lazım olanları aşılamalıdır. Bu baxımdan məktəblərin, orada tədris işi ilə məşğul olan müəllimlərin üzərinə böyük məsuliyyət düşür.

Ailənin təməlinin möhkəm qoyulmasında, iki insan - qadın və kişi arasında bağlanan nikahın uzunömürlü olmasında, sözsüz ki, ailədə doğulan körpənin əvəzsiz rolu var. Körpə gülüşü ata-anaya sevinc bəxş edir, onları birgə yaşamağa ruhlandırır, ailəyə xoşbəxtlik gətirir. Valideyn ağır iş günündən sonra nə qədər yorğun olursa-olsun, körpəsinin baxışlarına təbəssümlə cavab verir, onun qayğıları ilə maraqlanır. Bu, valideynin mənəvi rahatlığına səbəb olur. "Kiçik dövlət" sayılan ailənin sağlam, fiziki cəhətdən gümrah, mənəvi cəhətdən kamil olması günümüzün vacib məsələlərindəndir. Bu vacib məsələnin həlli üçün, ilk növbədə, ailə, bağça, məktəb, ali təhsil ocaqları, ümumilikdə, bütün cəmiyyət var-qüvvəsini səfərbər edir. Uşaqları kiçik yaşlarından düzgün tərbiyə etmək, onların əqli və fiziki imkanlarını yüksək səviyyədə inkişaf etdirmək, gələcəkdə vətənə, xalqa layiq övlad kimi yetişdirmək ən vacib amildir. Uşaq və gənclərin fiziki və mənəvi tərbiyəsi, onların inkişafına göstərilən diqqət, gənc nəslin üzləşdiyi problemlərin həlli istiqamətində atılan məqsədyönlü addımlar, görülən tədbirlər dövlətimizin əsas prioritet vəzifələrindəndir. Yetişməkdə olan gənc nəslin sağlamlığının təmin edilməsində, intellektual və mədəni səviyyəsinin yüksəldilməsində, onların vətənpərvərlik hisslərinin tərbiyəsində, əməyə, vətənin müdafiəsinə hazır olan mərd, cəsur insanlar kimi yetişməsində idmanın rolu əvəzsizdir. Dünya təcrübəsi əsrlər boyu sübut edib ki, fərdin mənəvi və fiziki sağlamlığı son nəticədə xalqın ümumi sağlamlığı, millətin bu günü və gələcəyidir. Uşaq və gənclərin tərbiyəsində müstəsna rol oynayan bədən tərbiyəsi və idmanın inkişafına daha da sürətləndirmək, bu sahədə kütləviliyi təmin etmək üçün Azərbaycanda məqsədyönlü və hərtərəfli işlər görülür. Təbii ki, idmanın inkişafı həm də sağlam həyat tərzinin təbliğinə xidmət edir.

Məlum məsələdir ki, sağlam millət sağlam gələcək deməkdir. Azərbaycan dövləti sağlam gələcəyin təminatçısıdır. Bu baxımdan deyə bilərik ki, paytaxt və bölgələrdə tikilib istifadəyə verilən olimpiya idman kompleksləri, idman zalları, stadionlar Azərbaycan xalqının sağlamlığına xidmət edir. Bu cür idman qurğuları həm də Azərbaycanın idman ölkəsi kimi uğurlarında əhəmiyyətli rol oynayır. Dövlət qayğısı ilə əhatə olunan idmançılarımızın dünya arenalarında əldə etdikləri uğurların sayı ildən-ilə artır. Ölkəmizin beynəlxalq yarışların mərkəzinə çevrilməsi də təsadüfi deyil. Beynəlxalq idman qurumları mötəbər yarışları Azərbaycana həvalə edirlər. Çünki bu qurumlar yaxşı bilirlər ki, ölkəmiz belə tədbirlərin təşkilində kifayət qədər təcrübəyə malikdir. Dörd ildən bir keçirilən və möhtəşəmliyi, səviyyəsinə görə digər yarışlardan fərqlənən olimpiya oyunlarında idmançılarımızın əldə etdiyi nəticələr, qazandıqları uğurlar ürəkaçan və sevindiricidir. Bütün bunlar sağlam gəncliyin formalaşmasına öz müsbət təsirini göstərir. Hazırda Bakıda 5, regionlarda isə 40 olimpiya idman kompleksi fəaliyyət göstərir. İdman infrastrukturunun gücləndirilməsi ölkəmizdə aparılan uğurlu idman siyasətinin bir hissəsi olmaqla yanaşı, gənclərin fiziki hazırlığının yüksək səviyyədə olmasına və asudə vaxtlarının səmərəli təşkilinə xidmət göstərir.

Azərbaycanda idman infrastrukturunun yenilənməsi və maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində görülmüş işlər iri idman obyektləri ilə məhdudlaşmır. Son 10 ildə təkcə Bakı şəhərinin qəsəbələrində 9 idman zalı, mini futbol və digər idman meydançaları, şahmat məktəbi tikilib istifadəyə verilib. Bu işlər, eyni zamanda, regionları da əhatə edib. Növbəti illərdə paytaxtın Səngəçal, Ələt, Qobustan, Qaraçuxur, Bülbülə, Türkan, Qala qəsəbələrində də bu kimi idman zalları və meydançaları tikilərək istifadəyə verilməsi nəzərdə tutulur.

İdman sağlamlığın rəhnidir. Eyni zamanda, idman ölkənin təbliği, yeni dostlar və iqtisadiyyat mexanizmidir. Bütün bunları nəzərə alsaq, ölkəmizdə idman infrastrukturunun gücləndirilməsi respublikamızda idmanın kütləviliyinin təmin edilməsində, bölgələrdə yaşayan gənclərin sağlam həyat tərzi keçirməsində, gələcək idmançıların yetişdirilməsində mühüm rol oynayır.

Bununla belə, mütəxəssislər uşağın mənəvi inkişaf prosesinin böyük əhəmiyyət daşıdığını bildirirlər. Çünki onun gələcəkdə necə insan (xeyirxah, səmimi, başqasının fikirlərinə hörmət edən) olması, cəmiyyətə xeyirli bir fərd kimi yetişməsi, kamil bir insan kimi formalaşmasında bu prosesin rolu danılmazdır. Həyat təcrübəsi göstərir ki, insana elmi, ensiklopedik biliklərdən başqa, həyatda çətinliklərə dözmək, qarşıya çıxan maneələrdən keçə bilmək üçün təcrübə, dözüm, iradə kimi yüksək keyfiyyətlər də lazımdır.

Ölkəmizdə gənclərin sosial problemlərinin həlli də diqqət mərkəzində olub. Burada həmişə gənclərə dəstək olan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətlərini qeyd etmək lazımdır. Heydər Əliyev Fondunun hər zaman diqqət mərkəzində saxladığı kimsəsiz uşaq və gənclərin cəmiyyətə inteqrasiyası, onların həyatda öz yerini tutması, layiqli vətəndaş kimi böyüməsi istiqamətində gördüyü işlər mühüm əhəmiyyət kəsb edir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hər il irsi qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün könüllü qanvermə aksiyaları təşkil olunur, xəstə və imkansız vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilən tədbirlər həyata keçirilir. Eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır. Ölkədə gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq əsas hədəflərdən biridir. Respublikada intellektual hərəkatın inkişafı və gənclərin beynəlxalq intellektual hərəkata qoşulmasına şəraitin yaradılması üçün silsilə tədbirlər həyata keçirilir. Bu məqsədlə gənclər arasında müxtəlif intellektual oyun növləri təbliğ edilir, ənənəvi oyun növləri üzrə respublika və beynəlxalq səviyyəli çempionatlar, yarışlar, turnirlər təşkil edilir, respublikanın regionlarında intellektual klublar yaradılır.

Ən nəhayət, onu da qeyd edək ki, ölkə gənclərinin hərtərəfli inkişafını təmin etmək məqsədilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" dövlət başçısı İlham Əliyev tərəfindən təsdiq olunub. İlk dəfə olaraq, strategiyada Azərbaycan gəncliyinin müxtəlif sosial qrupları müəyyənləşdirilib. Sənədin əsas məqsədi bu dövr ərzində Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının mənafeyi naminə istifadə etmək və yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır. Əminliklə demək olar ki, ölkəmiz hazırda bu strategiyanı uğurla davam etdirir.

*Vidadi XUDAŞOV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.**

**Deputatlıq mandatı əldə etməyə yalnız siyasət adamları, iqtisadçılar, tanınmış ictimai-siyasi xadimlər, mütəxəssislər deyil, siyasətlə heç bir əlaqəsi olmayan şou-biznesçilər, müğənnilər, sənətçilər də can atırlar. Biz zaman-zaman bu halın şahidi olmuşuq.**



# Şou müğənnilər də parlamentə düşmək iddiası ortaya qoydularsa...

Bir sıra şou müğənniləri mandat əldə etmək üçün keçən parlament seçkilərinə qatılıblar, lakin onlar, demək olar ki, heç bir seçici səsi toplaya bilməyərək deputatlıq kürsüsünə həsrət qalıblar.

Bir neçə gün əvvəl Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının ölkə parlamentinin buraxılması ilə bağlı qərar qəbul etməsi yenidən şou-biznesçiləri aktivləşməyə vadar edib. Ölkədə parlamentin buraxılması prosesi reallaşmamış, artıq bir sıra şou-biznesçilər, bəzi erotika "qəhrəmanları" millət vəkili olmaq iddialarını ortaya qoyublar. Onlar arasında indidən qanunsuz təbliğata başlayanlar da var. Bu gün elə şou-biznesçilər deputat olmaq istəyilə çıxış edir ki, adam təəccüblənir. Parlament şou-biznes məkanı deyil, bura kifayət qədər ciddi, mötəbər, ölkənin həyatında mühüm rol oynayan, taleyüklü məsələlərin müzakirə və həll edildiyi bir təsisatdır. Millət vəkilliyi isə şou göstərmək deyil, bu iş ciddi analitik təfəkkür, savad, geniş siyasi bilik, təcrübə tələb edən bir sahədir.

Filologiya üzrə fəlsəfə doktoru, tanınmış tədqiqatçı-alim Qiymət Məhərrəmli "Bakı-Xəbər"ə bildirdi ki, şou-biznesçilərin deputatlığa kütləvi maraq göstərməsi böyük faciədir. Öz sahəsində heç bir iş görməyən bəzi şou-biznesçilərin millət vəkili olmaq istəyinin kökündə onların hüquqi toxunulmazlıq əldə etmək istəməsi dayanır. "Parlamentin tərkibi kifayət qədər bilikli, savadlı, siyasətdən, iqtisadiyyatdan, beynəlxalq aləmdən xəbəri olan, geniş təfəkkürə, siyasi-hüquqi, iqtisadi biliyə sahib olan insanlardan təşkil olunmalıdır. Millət vəkili olmaq insandan böyük məsuliyyət tələb edir. Ümumiyyətlə, sənət adamlarının, xüsusən də şou-biznesçilərin parlamentə can atması, deputatlıq mandatı əldə etmək iddiasında olması təsadüfi deyil. Şou adamları deputat toxunulmazlığı əldə etmək və sonra isə mandatın verdiyi səlahiyyətlərdən geniş surətdə sui-istifadə etmək istəyirlər. Şou-biznesçilər xalqa canları yandığı üçün millət vəkili olmaq istəmirlər. Onlar bu mandatı öz həmkarlarına zərbə vurmaq üçün əldə edirlər. Elə adamlar millət vəkili olmağa iddia edir ki, adam məəttəl qalır. Bu adamların nə səsi, nə istedadı, nə də savadı var. Sabah onların hansısa biri deputat seçilərsə, ölkəni necə təmsil edə bilər? Deputat savadlı olmalıdır, bizim şou-biznesçilər arasında isə iki-üç nəfər savadlı adam var, qalan hamısı savadsızdır".

***Qiymət Məhərrəmli:** "Şou adamları deputat toxunulmazlığı əldə etmək və sonra isə mandatın verdiyi səlahiyyətlərdən..."*

***Ənvər Çingizoğlu:** "Şou müğənniləri, şoumenlər deputat olmaq iddiasına düşməklə özlərini gülünc vəziyyətə salır, lağ obyektinə çevirirlər"*

Q.Məhərrəmli bildirdi ki, bu gün parlamentdə olan deputatların xeyli qisminin səsini seçicilər eşitməyib. Onların parlamentin "ölü canlar"ı olduğunu deyən Q.Məhərrəmli hesab edir ki, şou müğənniləri də millət vəkili seçilərsə, ağızlarına su alanlardan olacaqlar. "Siz özünüz də yaxşı bilirsiniz ki, sənət adamlarının çoxu parlamendə heç bir iş görməyib. Sadəcə, orada özlərini göstəriblər. Sənətin, mədəniyyətin, ədəbiyyatın kifayət qədər problemi var ki, onların birini də səsləndirməyiblər" - deyə Q.Məhərrəmli bildirdi.

Tanınmış etnoqraf-alim Ənvər Çingizoğlu da hesab edir ki, şou-biznesçilərin parlament seçkilərində iştiraka can atmasının səbəbləri onların öz şəxsi mənafeyilə bağlıdır. "Xalq onsuz da şou-biznesçiləri sevmir, heç şou-biznesçilər də xalqı sevmir. Bu adamlar həmişə öz məqsədlərini həyata keçirmək üçün vəziyyətdən istifadə ediblər. Şou müğənnilərinin deputat olmaq istəyinin kökündə onların mandat əldə etməsi dayanır. Amma hesab edirəm ki, savadı, siyasi təfəkkürü olmayan şou-biznesçilər, şoumenlər Milli Məclis üzvlüyünə seçilə bilməz. Şou müğənniləri, şoumenlər deputat olmaq iddiasına düşməklə özlərini gülünc vəziyyətə salır, lağ obyektinə çevirirlər. Şou-biznesçilərin parlament seçkilərinə qatılması pis haldır, parlament onlar üçün deyil" - deyə Ə.Çingizoğlu bildirdi.

***İradə SARIYEVA***

---

**Son 13 il ərzində Azərbaycanda müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan talassemiya xəstələrinin sayı artıb. Ötən il ölkədəki talassemiya xəstələrinin sayı 2017-ci illə müqayisədə azalsa da, ümumilikdə, son 13 il ərzində göstərici 5 dəfədən çox artıb. 2018-ci ildə Azərbaycanda müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan talassemiya xəstələrinin sayı 3 700 olub.**




# Talassemiya xəstələrinin sayında inanılmaz artım...

***Adil Qeybulla:** "İnsanların bu istiqamətdə təsəvvürləri yanlışdır"*

Qeyd edək ki, bu say 2017-ci ildə 3 835, 2015-ci ildə 2 593, 2010-cu ildə 1 650, 2005-ci ildə 656 nəfər təşkil edib.

Ötən il qeydiyyatda olan talassemiya xəstələrinin 2 046-sı 17 yaşa qədər uşaqlar olub.

2018-ci ildə ölkədə 418 nəfərə ilk d?f? şəkərli talassemiya diaqnozu qoyulub ki, bu say da 2005-ci ildə 302 olub.

Keçən il ilk dəfə talassemiya diaqnozu qoyulmuş xəstələrin 232-si 17 yaşa qədər uşaqlardır.

Talessemiya xəstəliyindən əziyyət çəkənlərin sayının nə səbəbdən artdığını öyrənmək üçün ekspertə müraciət etdik. Professor Adil Qeybulla bizimlə söhbətində qeyd etdi ki, Azərbaycan talassemiyalı xəstələrin çox olduğu bir ölkədir: "Ölkədə talassemiya xəstəliyi daha çox irsi yolla yayılır. Bu, ümumiyyətlə, irsi xəstəlikdir. İllər uzunu talassemiya daşıyıcısı olan şəxslər ailə qurub və onların da talassemiyadan əziyyət çəkən övladları dünyaya gəlib. Bu, nəzarətdə olmadığından, talassemiyalı xəstələrin sayı ciddi şəkildə artırdı. Yəni bu cür xəstələrin sayının son vaxtlar artdığını qeyd etmək düzgün deyil. İndi, sadəcə olaraq, bu xəstəliklərin aşkarlanması artıb. Hazırda talassemiyalı xəstələrin müalicəsi üçün bir Dövlət Proqramı var. Belə ki, bu cür şəxslər qeydiyyata alınır. Onlar ailə qurarkən hamiləlik vaxtı mütəmadi olaraq yoxlanılır. Əgər uşaq da talassemiya daşıyıcısıdırsa, həmin uşağın dünyaya gəlməsi əngəllənir. Əslində, ailə qurarkən tibbi sığortanın tələb olunması bu kimi halların baş verməsinin qarşısını alır. Bu baxımdan, tərəflər özlərində məsuliyyət hiss etməli və bu cür yoxlanışdan mütləq keçməlidirlər. Tərəflər yoxlanış üçün müraciət edirlər və hər iki tərəfdə olan xəstəliklərlə bağlı tam məlumat verilir.

Ondan sonrakı mərhələdə tərəflər öz məsuliyyətlərinə buraxılır. Bəziləri düşünürlər ki, nikah vaxtı tibbi arayışın tələb edilməsi nikaha girənlərin sayını azalda bilər. Amma bu prosesin müsbət tərəfləri mənfi tərəflərindən qat-qat çoxdur".

*"Azərbaycanda talassemiya xəstələri və gen daşıyıcıları da az deyil"*

Ekspert onu da vurğuladı ki, Azərbaycanda talassemiya xəstələri və gen daşıyıcıları da az deyil. Ayrı-ayrı rayonlarda eritrositlərin kaskulyar həcmlərinin aşağı olması hemoqlapatiyanın bir işarəsidir. Sonra xəstəni göndəririk Qanköçürmə İnstitutuna, orada dəqiq şəkildə yoxlanılır. Sonradan aydın olur ki, kimlər talassemiya xəstəliyi daşıyıcılarıdır: "Hazırda evlənənlər arasında da bu cür müayinələr aparılır. Əslində, məntiqlə düşünsək, Talassemiya Mərkəzi açıldıqdan sonra talassemiyalı xəstələrin sayı azalmalı idi. Çünki talassemiya xəstəliyinin daşıyıcıları erkən aşkar olunurlar. Belə insanların gələcəkdə uşaqlarında talassemiya riski varsa, onlara xəbərdarlıq edilir, hamiləliyə nəzarət olunur. Bu mərkəz proqram yerinə yetirməli idi. Hər halda, artım varsa, əlbəttə ki, məsuliyyəti o orqan daşıyır. Gərək ki, azalaydı. Düzdür, tam bu xəstəliyi kökündən yox etmək olmaz, çünki gen daşıyıcılığı Azərbaycanda var. Amma, istənilən halda, xəstə uşaqların doğulmasının qarşısını almaq üçün real imkan var. Nə üçün bu imkan və resurslardan tam bəhrələnməyib, onu deyə bilmərəm".

Həmsöhbətimiz söhbət əsnasında onu da qeyd etdi ki, televiziyalarda belə xəstəliklərlə bağlı maarifləndirmənin aparılması vacibdir: "Mən düşünürəm ki, nikaha girən vətəndaşların hamısı yoxlanılır, müayinə olunur. İnsanlar özləri də yoxlanmağa maraqlı olmalıdırlar. Erkən diaqnoz qoyulmalıdır, çünki bu xəstəliklə doğulan uşaq ailə üçün faciədir. Ailənin bütün həyatı, strukturu pozulur. Burada təbliğatdan da çox şey asılıdır. Televiziyada gedən boş-boş verilişlərdənsə, belə xəstəliklərlə bağlı maarifləndirmənin aparılmasına fikir vermək daha yaxşı olardı. İnsanların bu istiqamətdə təsəvvürləri yanlışdır, onları düzgün yönləndirmək lazımdır".

***Günel CƏLİLOVA***

**Dərslik sahəsində həyata keçirilən islahatlar nəticəsində yeni dərslik növləri də yaradılır. Artıq səsli dərsliklərin mobil tətbiqi həyata keçirilərək şagirdlərin istifadəsinə verilib.**

# Azərbaycan təhsil sistemində yeni metod - səsli dərsliklər...



### *Məlahət Mürşüdlü: "...gözdən əlil şagirdlər üçün müvafiq fənlərin əlçatanlığını təmin edir"*

Qeyd edək ki, Təhsil Nazirliyi tərəfindən elan olunan təhsildə inkişaf və innovasiyalar üzrə 3-cü qrant müsabiqəsi çərçivəsində orta məktəb şagirdləri üçün ölkəmizdə ilk dəfə olaraq dərsliklərin mobil tətbiqi hazırlanıb.

Məlumatlara görə, 5, 6 və 7-ci sinif ədəbiyyat dərsliklərini əhatələyən layihə Gəncə şəhərində təhsil ictimaiyyətinə təqdim olunub. Kəlbəcər rayonu 19 saylı tam orta məktəbin ədəbiyyat müəllimi Nofəl Şirinovun müəllifi olduğu bu layihə orta ümumtəhsil məktəblərində təhsil alan şagirdlərlə yanaşı, görmə imkanları məhdud olan uşaqların təhsil imkanlarını genişləndirməyə xidmət edir.

Şagirdlər ədəbiyyat dərsliklərindəki bədii mətnləri səsli formatda www.sesliderslik.az saytıyla yanaşı, bundan sonra mobil tətbiqdən də istifadə edərək rahat bir şəkildə dinləyərək öyrənə biləcəklər.

Android əməliyyat sistemi ilə işləyən mobil qurğularda bu tətbiqi quraşdıraraq uğurla istifadə etmək mümkündür. Gəncə şəhərində yerləşən 11 nömrəli Kəlbəcər tam orta məktəbində keçirilən təqdimat mərasimində iştirak edənlərə layihə haqqında geniş məlumat verilib və bu resurslardan istifadə olunmasının tədris mühitinə qazandırdığı üstünlüklərdən geniş söhbət açılıb. Qeyd edilib ki, sayta daxil olaraq "mobil tətbiqi yüklə" linkindən istifadə edərək, hər bir şagird və müəllim bu resurslardan faydalana bilər.

Layihə rəhbəri bildirib ki, qarşıya qoyulan hədəflərə çatmaq istiqamətində "Səsli dərslik" mobil tətbiqi layihəsi hazırda üç kitabı əhatə edir və gələcəkdə digər dərsliklərin də mobil tətbiqdə yer alması mümkündür.

*"Dərslik sahəsində mütəmadi olaraq yenilənmələrə ehtiyac var"*

Tanınmış təhsil eksperti Məlahət Mürşüdlü bu layihənin tədrisdə innovativ texnologiyaların tətbiqi baxımından yenilik olduğunu dedi. O hesab edir ki, müasir dərsliklərin yeni formatda da təqdim edilməsi günün tələbidir. M.Mürşüdlü hesab edir ki, yalnız gözdən əlillər üçün deyil, həm də lal və karlar üçün də innovasiyalardan istifadə edərək dərsliklər yaradılmalıdır: "Dərslik sahəsində mütəmadi olaraq yenilənmələrə ehtiyac var. səsli dərsliklərin də meydana gəlməsi zəruri idi. Hesab edirəm ki, elektron tədris resurslarının yaradılması və bu resurslara çıxış imkanlarının genişləndirilməsi mühüm haldır. Səsli dərslik resurslarının mobil tətbiqinin genişləndirilməsi tədris sahəsində yenilik olmaqla yanaşı, həm də gözdən əlil şagirdlər üçün müvafiq fənlərin əlçatanlığını təmin edir. Onlar səsli dərsliklərin mobil tətbiqilə çox şey əldə edirlər. Fikrimcə, lal və karlar üçün də dərsliklərin mobil tətbiqinin üsullarını tapmaq və dərslikləri onlar üçün də bu şəkildə əlçatan etmək lazımdır" - deyə M.Mürşüdlü qeyd etdi.

***İradə SARIYEVA***

---

**Azərbaycanda ilk arxeoloji park olacaq Göytəpə Arxeoloji Parkının yaradılması hələ tam olaraq reallaşmayıb. Bu parkın yaradılması, burada muzeyin, Neolit kəndinin, eləcə də digər təsisatların formalaşdırılması ölkəmizə turist axınının güclənməsinə səbəb ola biləcək amildir.**

# Göytəpə Arxeoloji Parkının yaradılması prosesi necə gedir...



### *Fərhad Quliyev: "AMEA yanında Arxeoloji Parkın yaradılması işinin sürətləndirilməsi məsələsi AMEA-nın yeni rəhbərliyinin tam diqqətindədir"*

Məlumat üçün bildirək ki, Prezident İlham Əliyevin 2012-ci il 18 aprel tarixli Sərəncamına əsasən, Azərbaycanda ilk dəfə Arxeoloji Park yaradılmalı olduğu halda, 7 il keçməsinə baxmayaraq, sənəddə nəzərdə tutulan arxeoloji park hələ də yaradılmayıb.

Onu da vurğulayaq ki, Azərbaycanda son illər həyata keçirilən silsilə arxeoloji tədqiqat işləri ölkəmizdə bir neçə arxeoloji park yaradılmalı olduğunu deməyə əsas verir.

Haqqında danışdığımız Tovuz rayonu ərazisində yerləşən Göytəpə arxeoloji kompleksi Azərbaycanın ən qədim maddi mədəniyyət nümunələrindəndir. Əlbəttə, bu abidə tariximizin öyrənilməsi və turizmin inkişafı baxımından böyük əhəmiyyətə malikdir.

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, Tovuz arxeoloji ekspedisiyasının rəhbəri Fərhad Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) yanında Göytəpə Arxeoloji Parkının yaradılması gündəmdədir. Hazırda sözügedən sahədə elə də diqqətçəkən işin görülmədiyini deyən F.Quliyevin sözlərinə görə, amma parkın yaradılması işinin sürətləndirilməsi akademiyanın yeni rəhbərliyinin diqqət mərkəzindədir.

O qeyd etdi ki, 2008-ci ildə yerli və xarici mütəxəssislərin iştirakı ilə başlayan arxeoloji qazıntılar zamanı Göytəpədə eramızdan əvvəl, VII-VI minilliyə aid çox yaxşı qalmış Neolit dövrü yaşayış məskəni və bir çox maddi mədəniyyət nümunələri aşkarlanıb. 2012-ci ilin aprelində ölkə başçısı İlham Əliyevin qərb bölgəsinə etdiyi səfər zamanı Göytəpə neolit dövrü abidəsinin ilkin nəticələri ilə tanış olduğunu və AMEA yanında Göytəpə Arxeoloji Parkının yaradılması ilə bağlı sərəncam imzaladığını deyən F.Quliyevin sözlərinə görə, Arxeoloji Parkın indiyədək yaradılmamasının bir neçə subyektiv səbəbi var, amma prosesin tezliklə başlayacağı istisna edilmir. "Sizinlə keçən söhbətimizdə arxeoloji parkın yaradılmasında gecikmənin bir sıra subyektiv səbəbinin olduğunu qeyd etmişdim. Bilirsiniz ki, layihə mürəkkəb xarakterli idi. Yəni çoxları park sözünün mahiyyətini dərk etmirdi. Lakin artıq arxeoloji parkın salınması ilə əlaqədar xarici mütəxəssislərlə birgə layihə hazırlanıb və təqdimatı keçirilib. Gələn ilin yayınadək arxeoloji parkın önəmli hissəsinin hazır olması nəzərdə tutulur. Arxeoloji park, sadəcə, bir abidənin üstünün örtülməsi deyil. Burada əsasən abidənin tanıdılması və ictimailəşdirilməsi nəzərdə tutulur. Göytəpə arxeoloji parkı elə formada hazırlanacaq ki, buraya gələnlər özünü Neolit dövrünün kəndində təsəvvür edə bilsin. İnsanlar əcdadlarının 8 min il əvvəl hansı formada yaşadıqlarını əyani olaraq görəcəklər. Burada bir neolit mühiti yaradılacaq. Eyni zamanda, muzey və uşaqların arxeologiyaya marağını artırmaq məqsədilə əyləncəli arxeoloji işlər təşkil olunacaq".

*"Hesab edirəm ki, layihədə heç bir böyükmiqyaslı dəyişiklik edilməyəcək"*

Parkın layihəsində hər hansı bir böyük dəyişikliyin edilib-edilməyəcəyinə gəlincə, F.Quliyev bildirdi ki, kiçik korrektələri və müəyyən xırda əlavələri, təklifləri nəzərə almasaq, layihədə heç bir böyük dəyişiklik gözlənilmir: "Bilirsiniz ki, bu layihəni hazırlamışıq, hesab edirəm ki, layihədə heç bir böyükmiqyaslı dəyişiklik edilməyəcək. AMEA yanında Arxeoloji Parkın yaradılması işinin sürətləndirilməsi məsələsi AMEA-nın yeni rəhbərliyinin tam diqqətindədir və bildiyim qədər, ayın sonunda məsələ yenidən müzakirə ediləcək. Ümid edirəm ki, gələn ilin aprel ayında proses başlanacaq. Hər halda, buna ümidimiz var" - deyə bildirən F.Quliyevin sözlərinə görə, Göytəpə Arxeoloji Parkında yarımçıq qalan işlərin davam etdirilməsi üçün millət vəkili Qənirə Paşayeva Prezident İlham Əliyevə müraciət ünvanlayıb. F.Quliyevin dediyinə görə, Tovuz Diyarşünaslıq Muzeyi yaradılıb və həmin muzeyin ekspozisiyasında Göytəpə arxeoloji abidəsindən aşkarlanan eksponatlar sərgilənəcək. Ekspedisiya rəhbərinin bildirdiyinə görə, bu muzeydə, həmçinin, Tovuz ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkarlanan digər eksponatlar da yer alacaq.

F.Quliyev hesab edir ki, yaxın bir neçə ay ərzində Göytəpə Arxeoloji Parkının yaradılması prosesinin həyata keçirilməsinin şahidi olacağıq.

***İradə SARIYEVA***

№ 214 (4112) ■ Qiymәti: 40 qәpik

BAKI XƏBƏR

www.baki-xeber.com

3 DEKABR 2019-cu il

# 65 milyon il əvvəl dünya necə dağılıb..



**Təxminən 65 milyon il əvvəl, müasir Meksika ərazisində 1 saniyədə 25 kilometr sürətlə böyük ölçüdə meteorit Yer ilə toqquşdu.**

Meteoritin düşməsi nəticəsində planetdə həyatın təxminən 75% -i məhv olub. "Milli.Az" xəbər verir ki, meteoritin düşməsi güclü partlayışa səbəb olub. Göydən enən zərbələr yer üzünü uçurur, partlayış episentrindən bir neçə min kilometr məsafədə olan meşələri alov bürüyür. 130 metr yüksələn tunami çox miqdarda çirk, kömür və daş yığaraq partlayış nəticəsində əmələ gələn çuxura atır. Partlayışdan sonra atmosferə günəş işığını manea olan külli miqdarda tüstü və toz qalxır, bu da istər-istəməz güclü qlobal soyumaya səbəb olub. Bundan əlavə, yer üzünə turşu yağışı yağıb. Beləliklə, dinozavrların ölümünə səbəb toqquşma nəticəsində baş verən partlayışın özü deyil, meteoritin təsirindən yuxarıda təsvir edilmiş hadisələr səbəb olub. 65 milyon il əvvəl baş verənləri anlamaq üçün elm adamları Meksika körfəzinin dibindəki çöküntü nümunələrini araşdırıblar.

**Tədqiqatçılar partlayış yerlərində kükürd yataqlarının olmamasına xüsusi diqqət çəkiblər. Bu, kükürdün buxarlandığını və atmosferə düşdüyünü, sonra yağıntılar ilə birlikdə yerə düşdüyünü göstərir.**

## Elan

Gülarə Əliyeva adına 3 saylı U.İ.M-nin şagirdi Şamquliyeva Fatimə Xaqani qızına aid A-10731 saylı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Ləzgiyev Şahzadə Mərdəli oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Y.Hüseynov döngəsi, ev 108/3 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır

Süleymanov Pərviz Mustafa oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynova Fidan Aqil qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Abbasova Sara Mikayıl qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Şükürov Fərzulla Sədaqət oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İsmayılova Balacaxanım Səfər qızının adına, Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, 1 May məhəlləsi, Binəqədi yolu, keçid 1-də yerləşən 1 ədəd 2 mərtəbəli qeyri-yaşayış sahəsinin 4 nömrəli fərdi yaşayış evinin çıxarışı (seriya MH 0162347) itdiyi üçün etibarsız sayılır.

Quliyeva Sevil Şükür qızının adına, Şabran rayonu, F.X.Xoyski küçəsi, ev 3 ünvanının 1a/1141 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Novruzov İsmayıl Qurban oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İsayeva Alidə İsa qızının adına, Nizami rayonu, Qara Qarayev prospekti, bina 93, mənzil 20 ünvanının qeydiyyat vəsiqəsi və digər sənədlər itdiyi üçün etibarsız sayılır.

## Ən qədim şahmat fiqurु tapıldı



**Arxeoloqlar İordaniya ərazisində 1,3 min il tarixi olan dünyanın ən qədim şahmat fiqurunu tapıblar.**

"AZƏRTAC" bildirir ki, bu nadir tapıntı Britaniya Kolumbiyasında Viktoriya Universitetinin arxeoloqu Con Olesonun rəhbərlik etdiyi arxeoloji ekspedisiyanın qədim yaşayış məskənində apardığı qazıntılar zamanı aşkar edilib. Tapılan şahmat oyununun top fiqurunu qumdan düzəldilib və yuxarısında iki xarakterik "buynuz" var. Onun tarixinin VII əsrə aid olduğu müəyyən edilib. Şahmatın 1500 il bundan əvvəl Hindistanda meydana gəldiyi, sonradan sürətlə qərbə doğru yayıldığı məlumdur. Top fiqurunun tapıldığı ərazi İordaniyanın cənubunda vaxtilə Hindistanla Yaxın Şərqi birləşdirən məşhur ticarət marşrutunun üzərində yerləşir.

## "Azercell" ilə limitsiz "WhatsApp" yazışmaları!

**Ölkədə texnoloji innovasiyaların təminatçısı kimi tanınan və əhalinin əksəriyyətinin seçimi olan "Azercell Telekom" MMC abunəçilərini yeni il ərəfəsində yeni bir kampaniya ilə sevindirir.**

Belə ki, şirkət aylıq internet paketi istifadəçilərinə "WhatsApp" mobil tətbiqi daxilində pulsuz yazışma imkanı təqdim edir. 500 MB, 1 GB, 5 GB, 10 GB və ya 50 GB/Limitsiz aylıq internet paketlərindən birini əldə edən fiziki şəxs statusuna malik bütün "Azercell" abunəçiləri paketin istifadə müddəti bitənədək bu kampaniyadan yararlana, beləliklə də "WhatsApp" üzərindən pulsuz ismarıc göndərə bilər. Qeyd edək ki, təklif 2020-ci il, yanvar ayının 31-dək qüvvədə olacaq.

"Azercell"in internet paketləri barədə ətraflı məlumat üçün https://www.azercell.com/az/personal/internet/data-packs/packs/ səhifəsinə daxil olun.

"Azercell"in təqdim etdiyi bu fürsətdən yararlanmağa, yeni ildə yaxınlarınızla daha çox ünsiyyətdə olmağa tələsin!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Çətinliklər çox olacaq, amma mənfi tendensiyaların təsiri uzun sürməyəcək. Problemlərin məngənəsində qalanlar isə özləri bunu seçmiş olacaqlar. Əsas odur ki, başqalarının işlərinə qarışmayasınız.



**Buğa** - Günün birinci yarısında diqqətsizlik, yüngülxasiyyətlik və öz gücünü düzgün hesablamama səbəbindən çətinliklər yarana bilər. Bu dövrdə nahaq xərclər və maliyyə itkiləri gözlənilir.



**Əkizlər** - Qonaq qəbulu, eyni zamanda xeyli uzaqdan gələn müsafirləri qarşılamaq üçün əla gündür. Həm özünüzü əla ev sahibi kimi göstərə, həm də xoş söhbətlə gözəl vaxt keçirərək faydalı əlaqələri möhkəmlədə biləcəksiniz.



**Xərçəng** - Sizin öhdəsindən gələ bilməyəcəyiniz problem yoxdur. Başqalarını kor dalana salan hadisələr sizi ciddi məşğul etmir. Onlar sizin yolunuzda canlarından keçməyə də hazırdırlar, özü də əvəzsiz.



**Şir** - Bu gün işləriniz ona görə alınır ki, ətrafdakıların gözlədikləri kimi hərəkət etmirsiniz. Özlərini itirmiş bədxahlarınız, paxıllarınız şokdadırlar və sizə mane olmağa gücləri yoxdur.



**Qız** - Ehtiyatlı olun: mənfi tendensiyaların gücü bu gün xüsusilə artır. İşdə problemlər ola bilər. Bəzi səhvləriniz maliyyə itkilərinə səbəb olacaq. Uğursuz şərait və ya rəhbərliyin qəfil tapşırığı ucbatından planları dəyişməli olacaqsınız.



**Tərəzi** - Hər kəs əsəbidir. Çox az adam qıcıqlanmadan kimisə dinləyir. Bəziləri özünənəzarəti gücləndirməyə çalışsalar da, mənfi emosiyalar lazım olmayan anda püskürür. Odur ki, münaqişəli situasiyaların çoxluğu qaçılmazdır.



**Əqrəb** - Bu gün daha məsuliyyətlisiniz. Ciddi yanaşma bir çox problemlərinizin həllinə kömək edir. Bunların sırasında əvvəllər heç cür öhdəsindən gələ bilmədikləriniz də var. Çoxdan darıxdığınız insanlar peyda olacaqlar.



**Oxatan** - Dünəndən bəri, sanki, elə bir hadisə, dəyişiklik baş verməyib, amma gün daha xoş və şən görünür. Hirs və qıcıqlarınızın öhdəsindən gələrək bütün günahkarları bağışlayacaq, küskünlükləri bir kənara ataraq həyatın dadını çıxarmağa çalışacaqsınız.



**Oğlaq** - İstənilən söhbət, ünsiyyət üçün gözəl gündür. Çətinlik çəkmədən diqqət mərkəzinə düşür, insanların rəğbətini qazanır, yeni tərəfdaşlar tapırsınız. Ziyafətə gedə, yaxud onu özünüz təşkil edə, qonaq qəbul edə bilərsiniz.



**Dolça** - Ünsiyyətə açıqsınız. İnsanlara gülümsəyirsiniz və müvafiq cavab özünü gözlətmir. Yeni işə başlamaq üçün əla gündür. Siz, şübhəsiz, lider olacaqsınız. Köməkçiləriniz nə qədər çox olsa, bir o qədər yaxşıdır.



**Balıqlar** - Bu gün xeyli plan qura bilərsiniz, amma onları həyata keçirmək mümkün olmayacaq. Ya öz gücünüzü düzgün hesablamırsınız, ya da tərəfdaş seçiminiz yanlış olur, işlər isə tökülüb qalır.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Kanada sakini lotereyada 13,2 milyon dollar uddu



**Kanadada 17,6 milyon Kanada dolları (13,2 milyon ABŞ dolları) məbləğində "49-dan 6" milli lotereyasının cekpotu oynanılıb.**

"Trend" xəbər verir ki, bu barədə "OLG" şirkətinin nümayəndələri bildirib. Təşkilatçılar bildiriblər: "Düşən nömrələr 1, 8, 18, 24, 30 və 45-dir. Bonus nömrəsi 13-dür". Hal-hazırda məlumdur ki, şanslı bilet Ontario vilayətində satılıb. Bundan əlavə, 1 milyon dollar (760 min dollar) məbləğində təsəlliedici mükafat da oynanılıb. Həmin mükafatı Britaniya Kolumbiya vilayətinin sakini qazanıb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.